№ 171 (5692), 2022-ci il

Qiymәti 40 qәpik

ŞƏRQ

Günәş Şәrqdәn doğur!

www.sherg.az 22 sentyabr 2022-ci il (cümә axşamı)

## İnsan alverinә qarşı mübarizәyә dair yeni mexanizm müәyyәnlәşir



**"İnsan alverinә qarşı mübarizә haqqında" qanuna dәyişiklik edilәcәk.**

Tәklif edilәn dәyişiklik Milli Mәclisin İnsan hüquqları komitәsinin dünәn keçirilәn iclasında müzakirәyә çıxarılıb.

Dәyişikliyә әsasәn, Milli Fәaliyyәt Planı iştirakçılarının fәaliyyәtinin әlaqәlәndirilmәsi Milli Koordinator yanında ictimai әsaslarla fәaliyyәt göstәrәn İşçi Qrup vasitәsilә hәyata keçirilәcәk. İşçi Qrupun tәrkibi, tәşkili, vә fәaliyyәt qaydası Azәrbaycan Respublikasının müvafiq icra hakimiyyәti tәrәfindәn müәyyәn edilib.

## Payız gәldi



**Bu il payız fәsli Azәrbaycana sentyabrın 23-dә, Bakı vaxtilә saat 05:03-dә daxil olacaq.**

Bu barәdә Azәrbaycan Milli Elmlәr Akademiyasının (AMEA) N.Tusi adına Şamaxı Astrofizika Rәsәdxanasından mәlumat verilib.

Payız gecә-gündüz bәrabәrliyi ilә Yer kürәsinin şimal yarımkürәsindә payız fәsli başlayacaq.

Bu zaman gecә ilә gündüz bәrabәrlәşәcәk. Günәş ekliptika üzrә hәrәkәt edәrәk şimal yarım kürәsindәn cәnub yarımkürәsinә keçәcәk vә hәmin andan şimal yarımkürәsindә payız fәsli başlayacaq.



## Valideynlәr illәrdir bu dәyişikliyi gözlәyir

### Hәrbi xidmәt zamanı başına bәdbәxt hadisә gәlәnlәrә dә şәhid statusu verilmәlidir

**Hәrbi xidmәtdә bәdbәxt hadisә nәticәsindә hәlak olanlara şәhid statusunun verilmәsi tәklif olunur.**

"Şәhid adlarının verilmәsi vә şәhid ailәlәrinә edilәn güzәştlәr haqqında" qanuna dәyişiklik olmalıdır. Milli Mәclisin İnsan hüquqları komitәsinin bu gün keçirilәn iclasında deputat Elşad Mirbәşir deyib.

Deputat bildirib ki, bununla bağlı tәkliflәrini Milli Mәclisә tәqdim edib: "Vәtәn müharibәsi dövründә hәrbi xidmәt keçәn zaman vә yaxud hәrbi vәzifәsini yerinә yetirәn zaman hәr hansı bәdbәxt hadisә nәticәsindә hәyatını itirәnlәrә dә şәhid adı verilsin. Bu mәnim tәklifimdir vә çox hәssas mәsәlәdir.

(sәh.5)



## Müharibәnin sona çatmasını istәyirik

### Bayden Rusiyanın qismәn sәfәrbәrlik elan etmәsini "uğursuzluq", "zәiflik" kimi qiymәtlәndirib

**Rusiya vә Ukrayna arasında müharibәnin sona çatmasını istәyirik.**

APA xәbәr verir ki, bu barәdә ABŞ Prezidenti Co Bayden Birlәşmiş Millәtlәr Tәşkilatının 77-ci Baş Assambleyasında (BMT) çıxışı zamanı bildirib.

"Putin yenә mәsuliyyәtsiz açıqlamalar verir", - Bayden vurğulayıb.

ABŞ lideri Rusiyanın qismәn sәfәrbәrlik elan etmәsini "uğursuzluq", "zәiflik" kimi qiymәtlәndirib.

"Heç kim Rusiyanı tәhdid etmir. BMT Tәhlükәsizlik Şurasının daimi üzvü Rusiya qonşusunu işğal edәrәk suveren bir dövlәti xәritәdәn silmәk istәdi.

(sәh.3)

## Tәşkilat Komitәsinin növbәti iclası keçirilib

### Mәtbuat Şurasının İdarә Heyәtinә әn çox sәs toplayan namizәdlәrin siyahısı açıqlandı




**Dünәn Azәrbaycan jurnalistlәrinin VIII qurultayının keçirilmәsi üzrә Tәşkilat Komitәsinin növbәti iclası keçirilib. Toplantıda üç mәsәlә müzakirәyә çıxarılıb.**

Birinci mәsәlә ilә әlaqәdar mәlumat verilib ki, müxtәlif media tәmsilçilәri qurultayı işıqlandırmaq istәyәn jurnalistlәrin ali mәclisdә iştirakı ilә bağlı suallar ünvanlayırlar. Onların sәrbәst fәaliyyәtlәrinin tәmin edilmәsi şәrtdir. Bu zaman qurultayın keçirilmә yerinin imkanları nәzәrә alınmalıdır. Tәşkilat Komitәsi ali mәclisi işıqlandıracaq jurnalistlәrin ayrıca qeydiyyatının aparılmasını mәqbul sayıb. Belә ki, KİV-lәr bununla bağlı info@pressocuncil.az e-mailinә 23 sentyabr 2022-ci il saat 15.00-dәk yazılı mәlumat göndәrmәlidirlәr.

(sәh.4)

# Prezident Laçın şәhәrindә Ermәnistana xәbәrdarlıq etdi

## İlham Әliyev: "Әgәr düşmәn bizә qarşı tәxribat törәdәcәksә, layiqli cavabını verәcәyik"



"Heç kimin zәngi, heç bir bәyanat, heç bir tәşәbbüs bizi dayandıra bilmәz"

**"Laçın rayonunun vә Laçın şәhәrinin işğaldan azad edilmәsi, bir daha demәk istәyirәm ki, tarixi hadisәdir".**

Bunu Prezident İlham Әliyev sentyabrın 21-dә Laçın şәhәrindә Azәrbaycan bayrağını ucaldarkәn çıxışında deyib. Dövlәt başçısı bildirib ki, bizim bütün şanlı Vәtәn müharibәmiz şanlı tariximizdir: "Ancaq xüsusi strateji әhәmiyyәtini, çәtin relyefi, ağır, soyuq iqlimi nәzәrә alsaq, Laçın vә Kәlbәcәr rayonlarının azad edilmәsi xüsusi әhәmiyyәt kәsb edir.

(sәh.2)

## Әmininin ATƏŞİ yandırdı

### İranda sosial partlayışın olacağı әvvәlcәdәn proqnozlaşdırılırdı




**İranda Mәhsa Әmini adlı 22 yaşlı gәnc qadının ölümündәn sonra baş verәn etirazlar az sonra iğtişaşlara vә toqquşmalara çevrilib.** Etirazlar kürdlәrin yaşadığı vә Mәhsa Әmininin mәnsub olduğu Kürdüstan әyalәtinin Sәnәndәc şәhәrindәn başlayıb. Rәşt vә Tehranda baş tutan etirazlar az sonra iğtişaşlar vә tәhlükәsizlik qüvvәlәri ilә toqquşmalara çevrilib.

İranın Mәşhәd şәhәrindә etirazçılar tәcili tibbi yardım vә polis avtomobilini yandırıb. Etirazçılar zibil qutularını aşırıb, yandırıb, bәzi şәhәr lövhәlәrinә ziyan vurublar, tәcili tibbi yardım avtomobilinә hücum edәrәk onu yandırıblar.

(sәh.4)



## Putin sәfәrbәrlik elan etdi

### Rusiya bu dәfә Ukraynanın qarşısına 300 min hәrbçi ilә çıxacaq

**Rusiya Prezidenti Vladimir Putin Rusiyada qismәn sәfәrbәrlik haqqında fәrman imzalayıb.**

Çağırışçılar mütlәq hәrbi tәlim keçmәlidirlәr. Putinin vәtәndaşlara müraciәtindә qeyd etdiyinә görә, qismәn sәfәrbәrlik tәdbiri Rusiyanı, onun suverenliyini, әrazi bütövlüyünü qorumaq vә Rusiya xalqının tәhlükәsizliyini tәmin etmәk üçün qәbul edilib. Dövlәt başçısı Qәrbin açıq anti-Rusiya siyasәtini, Vaşinqton vә Brüsselin ölkәni mәhv etmәk istәyini xatırladıb.

(sәh.5)

## 4 nәfәr vәfat edib

### 251 yeni yoluxma faktı qeydә alınıb




**Azәrbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 251 yeni yoluxma faktı qeydә alınıb, 363 nәfәr müalicә olunaraq sağalıb.**

Nazirlәr Kabineti yanında Operativ Qәrargahdan "Şәrq"ә verilәn mәlumata görә, COVID-19 üçün götürülәn analiz nümunәlәri müsbәt çıxmış şәxslәrdәn 4 nәfәri vәfat edib.

Azәrbaycanda indiyәdәk ümumilikdә 820 098 nәfәrin koronavirus infeksiyasına yoluxması faktı müәyyәn edilib. Onlardan 808 725 nәfәr müalicә olunaraq sağalıb, 9 897 nәfәr vәfat edib, aktiv xәstә sayı 1 476 nәfәrdir.

*Ölkәdә son sutka әrzindә 4 123, hazırkı dövrәdәk isә 7 225 530 test aparılıb.*

## "Şәhid bacısı" adı ilә pul toplayan şәxs saxlanıldı



**Sosial şәbәkә seqmentlәrindә "şәhid bacısı" adı altında feyk profillәr vasitәsilә vәtәndaşlardan onlayn pul toplayan şәxs müәyyәn olunub.**

DİN-dәn "Şәrq"ә bildirilib ki, polis әmәkdaşlarının keçirdiyi tәdbirlәrlә 2000-ci il tәvәllüdlü Elşad Quliyev saxlanılaraq mәsuliyyәtә cәlb edilib.

*O törәtdiyi әmәli etiraf edib. Araşdırmalar davam etdirilir.*



## Ermәnistan KTMT-dәn çıxsa orada İrandakı hadisәlәr yaşanacaq

Әziz Әlibәyli: "Bu, Paşinyan hakimiyyәtini tabuta qoyaraq üstünü torpaqlamaq demәkdir"

(sәh.3)

## Ruslar müharibәyә qarşı çıxır

Fuad Abbasov: "Mitinqlәr Putin hakimiyyәtinin istefasına sәbәb ola bilәr"



(sәh.3)



# Prezident Laçın şəhərində Ermənistana xəbərdarlıq etdi

## İlham Əliyev: “Əgər düşmən bizə qarşı təxribat törədəcəksə, layiqli cavabını verəcəyik”

**”Laçın rayonunun və Laçın şəhərinin işğaldan azad edilməsi, bir daha demək istəyirəm ki, tarixi hadisədir”. Bunu Prezident İlham Əliyev sentyabrın 21-də Laçın şəhərində Azərbaycan bayrağını ucaldarkən çıxışında deyib. Dövlət başçısı bildirib ki, bizim bütün şanlı Vətən müharibəmiz şanlı tariximizdir:**

”Ancaq xüsusi strateji əhəmiyyətini, çətin relyefi, ağır, soyuq iqlimi nəzərə alsaq, Laçın və Kəlbəcər rayonlarının azad edilməsi xüsusi əhəmiyyət kəsb edir. Laçın və Kəlbəcər rayonları 1990-cı illərin əvvəllərində işğal edilərkən faktiki olaraq Ermənistanla Qarabağ arasında coğrafi bağlantı yaradılmışdı. Laçın rayonu 1992-ci il mayın 18-də, Kəlbəcər rayonu 1993-cü il aprelin əvvəlində işğal altına düşmüşdü və beləliklə, ermənilər öz arzularına çatmışdılar. Onlar hesab edirdilər ki, bu torpaqlarda əbədi yaşayacaqlar. Hesab edirdilər ki, buna nail olacaqlar. Görürdülər ki, onlara himayədarlıq edən bir neçə ölkə, onların cinayətlərinə göz yuman, bu məsələlərlə bilavasitə məşğul olan təşkilat buna biganə qaldı. Sanki onlara bəraət qazandırırdılar və daha da azğınlaşırdılar. İşğalın ilkin mərhələsində bizim bütün yaşayış məntəqələrimizi dağıtmışdılar. Ancaq sonra hiss etdilər ki, artıq bunların cinayəti cəzasız qalır, burada qanunsuz inşaat işlərinə başladılar, o cümlədən Laçın şəhərində, o cümlədən Zabux və Sus kəndlərində”.

**“Bu bayraq burada əbədi dalğalanacaqdır”**

Ölkə rəhbəri deyib ki, 44 günlük Vətən müharibəsinin sonunda Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu və beləliklə, Azərbaycanın tarixi Zəfəri təsdiqləndi. Bu kapitulyasiya aktının nəticəsində Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal edilmiş hissəsindən öz qoşunlarını çıxarmalı idi və buna əməl etdi. Dövlət başçısı qeyd edib ki, Laçın və Kəlbəcər rayonlarının bir hissəsi 44 günlük Vətən müharibəsi dövründə azad edilmişdi: ”Laçının cənub, Kəlbəcərin şimal hissəsini müzəffər Azərbaycan Ordusu işğalçılardan azad etmişdi. Ancaq Laçın şəhəri nəzarətimizdən kənarda qalmışdı. Bunun da səbəbi o idi ki, Ermənistanı Xankəndi ilə birləşdirən avtomobil yolu şəhərin ortasından keçir və buna görə biz Laçın şəhərini nəzarətə götürə bilməmişdik. Ancaq 9 noyabr tarixində aparılan danışıqlar nəticəsində mənim təkidimlə alternativ yolun çəkilişi sənəddə təsbit edildi və 3 il ərzində yeni yolun çəkilişi ilə bağlı razılaşmalar aparılmalı idi. Biz isə razılaşmaları daha tez bir zamanda başa çatdırdıq, Rusiya tərəfi ilə yeni yolun marşrutu təsdiqlənmişdi və təxirəsalınmaz tədbirlər görülərək yeni yolun çəkilişinə başladıq. Bu müddət cəmi bir il 8 ay çəkdi. Yəni bir il 8 aydan sonra artıq alternativ yol hazır idi. Biz rəsmi qaydada bildiriş göndərmişdik ki, avqustun 2-də yol hazırdır, avqustun 5-də Azərbaycan Laçın şəhərinə və o cümlədən köhnə yola daxil olur və Laçın şəhərinə qayıdır. Ondan sonra bizə Qarabağda yaşayan ermənilər müraciət etmişdilər, xahiş etmişdilər ki, onlara avqustun 25-nə qədər əlavə vaxt verilsin. Baxmayaraq ki, burada qanunsuz məskunlaşma olub, biz yenə də humanistlik göstərərək onlara bu imkanı verdik. Beləliklə, avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərinə daxil oldu və biz Laçın şəhərini qaytardıq. Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır”.

**“Erməni vandalizminin təzahürləri hər bir kənddə, hər bir şəhərdə var”**

Dövlət başçısı qeyd edib ki, erməni vandalizminin təzahürləri hər bir kənddə, hər bir şəhərdə var: ”Laçın şəhəri bütün Laçın rayonu kimi, işğal altında olmuş bütün başqa yaşayış məntəqələri kimi erməni vandalizminə məruz qalmışdır. Erməni vandalizminin təzahürləri hər bir kənddə, hər bir şəhərdə var. Ağdam şəhəri tamamilə yerlə-yeksan edilib, Füzuli şəhəri də, həmçinin Cəbrayıl şəhəri də, bütün kəndlər. Bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma aparmışdılar, Ermənistandan və daha çox xaricdən - Suriya və Livandan erməni əsilli insanları gətirib burada qanunsuz yerləşdirmişdilər. Bu, hərbi cinayətdir, bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş verib. Laçın şəhərinin böyük hissəsi tamamilə viran qoyulub, dağıdılıb. Ancaq yenə də bəzi yerlərdə qanunsuz məskunlaşma aparılıb. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədrləri buna, sadəcə olaraq, göz yumurdular. Halbuki, dəfələrlə bu mənzərəni görürdülər, dəfələrlə. Bax, bu yolla Ermənistandan Qarabağa, Qarabağdan Ermənistana gedərək görürdülər ki, burada qanunsuz məskunlaşma aparılır. Görürdülər ki, Azərbaycan toponimləri sıradan çıxarılır. Görürdülər ki, bizim tarixi, qədim Azərbaycan torpağı olan Laçın erməniləşdirilir, burada qanunsuz məskunlaşma aparılır. Ancaq buna göz yumurdular, sanki bununla razılaşırdılar. Biz Azərbaycan xalqı isə bununla heç vaxt razılaşa bilməzdik. Mən hər dəfə deyirdim ki, heç vaxt imkan verə bilmərik bizim torpağımızda ikinci erməni dövləti yaradılsın”.

**“Əgər Ermənistan bizi ittiham etmək istəyirsə ki, onların ərazisinə girmişik, bunun heç bir əsası yoxdur”**

Prezident vurğulayıb ki, əgər Ermənistan bizi ittiham etmək istəyirsə ki, onların ərazisinə girmişik, bunun heç bir əsası yoxdur: ”İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz sərhədlərə çıxdıq: ”Birincisi, əgər sərhəd onların dediyi yerdə idisə sərhədi quraydılar, sərhəd xətlərini inşa edəydilər, kommunikasiyaları, mühəndis işlərini quraydılar. Yəni bizim sərhədimizin delimitasiyası keçirilmədən heç kim deyə bilməz sərhəd haradan keçir. Mən yenə də deyirəm, biz müzakirələrə hazırıq və delimitasiya komissiyalarının - Azərbaycan-Ermənistan komissiyalarının işinə məsuliyyətlə yanaşırıq. Bütün xəritələri toplamışıq. Bir daha demək istəyirəm ki, bütün xəritələr, o cümlədən XIX əsrə, XX əsrə, ondan əvvəlki dövrə aid olan xəritələr bizdədir və o xəritələr açıq-aydın göstərir, kim hansı torpaqda yerləşibdir. Ona görə delimitasiya aparılmadan bizi heç kim ittiham edə bilməz”.

**“Müharibə dövründə 10 min fərarisi olan ölkə müharibə aparmaq iqtidarında deyil”**

Dövlət başçısı bəyan edib ki, müharibə dövründə 10 min fərarisi olan ölkə müharibə aparmaq iqtidarında deyil: ”İkinci Qarabağ müharibəsi olmaya da bilərdi, əgər Ermənistan bizim sözümüzə baxsaydı. Əgər öz xoşu ilə torpaqlarımızdan çıxsaydı, İkinci Qarabağ müharibəsi olmaya bilərdi. 2016-cı ilin Aprel döyüşləri bizim çox böyük qələbəmiz idi, mənəvi cəhətdən və strateji nöqteyi-nəzərdən. O döyüşlər nəticəsində azad etdiyimiz yüksəkliklər bizə əlavə imkanlar yaratdı, o cümlədən İkinci Qarabağ müharibəsində uğurlu yürüşümüzə də zəmin yaratdı”. Prezident qeyd edib ki, aprel döyüşlərindən sonra Ermənistan qorxuya düşmüşdü və faktiki olaraq işğal edilmiş torpaqlardan qoşunları çıxarmağa hazır idi, hətta buna söz vermişdi: ”Ancaq ondan sonra sözünü tutmadı. Aprel döyüşləri onlar üçün dərs olmadı. Ondan iki il sonra Naxçıvanda ”Günnüt” əməliyyatı keçirildi, strateji yüksəkliklər nəzarətə götürüldü. Bu da onlara dərs olmadı. Nəhayət, İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun tamamilə darmadağın edilməsi ilə nəticələndi və müzəffər Azərbaycan Ordusu öz doğma torpaqlarını azad etdi. Biz hesab edirdik ki, nəhayət bu, onlara dərs olacaq. Çünki Ermənistan ordusu tamamilə dağılmış vəziyyətdədir. Müharibə dövründə 10 min fərarisi olan ölkə müharibə aparmaq iqtidarında deyil, nə fiziki cəhətdən, nə mənəvi cəhətdən”.

Ölkə başçısı bildirib ki, 26 avqust tarixində Laçın şəhəri ilə birlikdə Zabux və Sus kəndləri də işğalçılardan azad edilib: ”Yəni bütün bu tarixi biz heç vaxt unutmamalıyıq. Biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq. Heç kim bu torpaqları bizə bağışlamayıb, heç kim bu torpaqları bizə danışıqlar yolu ilə qaytarmayıb. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, onun Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti məcbur edib buradan çıxarmalı idi. Ermənistana qarşı sanksiyalar tətbiq edilməli idi. Bunların heç biri görülmədi. Əksinə, bu işğalı əbədiləşdirmək üçün Ermənistan, dünya erməniliyi və onların xaricdəki havadarları birləşərək bu çirkin niyyəti həyata keçirmək istəyirdilər. Mən isə həmişə deyirdim ki, Azərbaycan xalqı buna heç vaxt razı olmayacaq. Həmişə deyirdim ki, məsələ sülh yolu ilə həll olunmasa, bunu hərb yolu ilə həll edəcəyik və etdik. Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu. Bu gün Laçın şəhərində olarkən haqlı olaraq qürur hissi keçirirəm ki, qədim Azərbaycan torpağında bizim üçrəngli bayrağımız dalğalanır”.



### “Heç kimin zəngi, heç bir bəyanat, heç bir təşəbbüs bizi dayandıra bilməz”

**“Delimitasiya prosesi başlasa da, mahiyyət üzrə heç bir danışıqlar aparılmır”**

Prezident deyib ki, biz müharibədən dərhal sonra onlara sülh təklif etdik: ”Bu da dünya hərb tarixində bəlkə də nadir hallardan biridir ki, 30 il ərzində torpağımız işğal altında olsun, insanlarımız əzab-əziyyət içində yaşasın, tarixi-dini abidələrimiz dağıdılsın, şəhərlərimiz dağıdılsın, milyondan çox mina döşənsin, buna baxmayaraq, biz sülh təklif etdik. Ancaq yenə də görürük ki, Ermənistan sülh istəmir, yenə də revanşist fikirlərlə yaşayır”. Dövlət başçısı deyib ki, biz təklif etdik ki, delimitasiya prosesinə start verək: ”Bunu təxminən bir ildən çox müddət ərzində uzatdı. İndi isə bu proses başlasa da, sırf formal xarakter daşıyır, mahiyyət üzrə heç bir danışıqlar aparılmır, xəritələr üzrə heç bir müzakirə aparılmır. Biz bütün xəritələri hazırlamışıq. Həm XX əsrin xəritələrini, həm əvvəlki dövrün xəritələrini və delimitasiya işləri bu xəritələr üzrə aparılmalıdır”.

Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif etmişik: ”Sözdə onları qəbul ediblər, amma biz bunu əməldə görmürük. Yenə də vaxt uzatma taktikası. Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktına əsasən, erməni silahlı qüvvələri Qarabağdan çıxarılmalı idi. Hələ də tam çıxarılmayıb. Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi. Bu günə qədər nəinki dəhliz verilməyib, hətta dəhlizin marşrutu bizə deyilməyib. Heç bir praktiki iş aparılmayıb. Biz isə indi dəmir yolunu Zəngilana qədər çəkmişik. Avtomobil yolunu Zəngilana qədər çəkmişik. Biz gələn ilin sonunda Ermənistan sərhədinə həm dəmir yolunu, həm avtomobil yolunu gətirəcəyik. Ancaq Ermənistan ərazisində heç bir iş görülmür və görünür ki, heç bir iş görmək istəmirlər. Yenə də vaxt uzadırlar”.

**“Biz Murov dağından Araz çayına qədər Azərbaycan-Ermənistan sərhədində əlverişli mövqelərdəyik”**

Dövlət başçısı vurğulayıb ki, Murov dağından Araz çayına qədər Azərbaycan-Ermənistan sərhədində əlverişli mövqelərdəyik: ”Üstəlik, son aylar ərzində dəfələrlə bizə qarşı hərbi təxribatlar törədilirdi. Təkcə Laçın rayonu ərazisində 1400-dən çox yeni mina döşənib və bu minalar 2021-ci ildə basdırılıb, yəni müharibədən sonra. Bu, Azərbaycana qarşı açıq terror hərəkətidir”. Dövlət başçısı müharibədən sonra 240-dan çox Azərbaycan vətəndaşının mina partlayışı nəticəsində ya həlak olduğunu, ya da ağır yaralandığını xatırladıb: ”Yəni bizə qarşı müharibə davam edir, bizim insanlarımız həlak olur. Biz buna imkan verə bilərikmi? Heç vaxt buna imkan verə bilmərik. Ermənistanı dəfələrlə xəbərdar etmişik, bu çirkin əməllərdən əl çəksin, peşman olacaq. Nəticə etibarilə sentyabrın 13-də bizə qarşı növbəti təxribat törədilərkən Azərbaycan Ordusu cavab verərək düşməni yenə də yerinə oturtdu. Ümid edirəm ki, nəhayət bu, onlara dərs olacaq. Çünki gördülər ki, bizi heç kim və heç nə dayandıra bilməz. Əgər düşmən bizə qarşı təxribat törədəcəksə, layiqli cavabını verəcəyik. Heç kimin zəngi, heç bir bəyanat, heç bir təşəbbüs bizi dayandıra bilməz. Biz öz torpağımızdayıq və öz torpağımızı qoruyuruq. Sərhəd boyunca əldə etdiyimiz mövqelər imkan verir ki, biz istənilən erməni təxribatını qabaqcadan görək və lazımi tədbirlər görək. Biz ta Murov dağından Araz çayına qədər Azərbaycan-Ermənistan sərhədində əlverişli mövqelərdəyik. Bu mövqelər bizə həm hərbi üstünlük verir, həm böyük əraziyə vizual nəzarət imkanı yaradır, o cümlədən önəmli kommunikasiya xətlərinə nəzarət etməyə imkan verir və biz artıq bu bölgələrdə yerləşirik. Biz otuz il bu sərhədlərdə olmamışıq”.

**İsmayıl**

# Xarici təhdid, "sionizm" iddiası, "terror təhlükəsi"...

## Asif Nərimanlı: “İran diqqəti daxili etirazlardan yayındırmaq istəyəcək”



**”Son sərhəd toqquşması və Ermənistanın sərgilədiyi mövqe fonunda üçtərəfli razılaşmaların icrasına diplomatik yolla nail olmaq imkanı zəifləyir”. Bu barədə siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, bu, yeni eskalasiyaların ola biləcəyi ehtimalını da artırır:**

”Xüsusilə İrəvanın sülh gündəliyini sıradan çıxarmaq məqsədilə təxribatları genişləndirəcəyi gözlənilir. İranı proseslərin mümkün inkişafı narahat edir. Bəs İran hansı addımlar ata bilər? Tehranın İrəvana hərbi yardım verməsi hər zaman aktual olub. Lakin bir neçə məqam bu senarini zəifledir. İran və Ermənistan arasında hərbi yardıma zəmin yaradan heç bir anlaşma yoxdur. İranın hərbi yardımı üçün Ermənistan rəsmi müraciət etməlidir. Ancaq KTMT-yə üzvlük İrəvanın bu imkanını zəiflədir. Zəngəzur dəhlizinin açılmasında da maraqlı olan Rusiya İranın Ermənistana praktiki girişinə imkan verməz. İran bu prosesdə daha çox Azərbaycanı dayandırmaq istiqamətində addımlar ata, Bakıya qarşı bəyanatlar və hədələrlə çıxış edə, həm dini, həm ”sionizm” iddiası üzərindən təbliğatı genişləndirə bilər. Bu həm də mövqeyini bəlli etməsi məqsədi daşıyır. Həmçinin, regionda ”terrorçuların mövcudluğu” iddiasını yenidən aktuallaşdıra və öz ərazisində hansısa ”terror aktı” kimi senarilərlə ”arqument” əldə etməyə çalışa bilər. Ya da sərhədə ”təlim” adı ilə qoşun toplayar. Bölgədə vəziyyətin gərginləşməsi, ”sionizm” iddiası, xarici təhdid, ”terror təhlükəsi” üzərindən kampaniyanın yenilənməsi və ordunun kazarmalardan çıxarılması İrana diqqəti hazırda baş verən daxili etirazlardan yayındırmaq üçün də sərfəlidir”.

**İsmayıl**



# Bölgədə müharibə ehtimalı yaranıb

## Çin və Hindistan Rusiya-Ukrayna müharibəsinin dayandırılmasının tərəfdarıdır

**Şanxay Əməkdaşlıq Təşkilatının son zirvə toplantısı çərçivəsində Rusiya Prezidenti Vladimir Putinlə görüşən əksər lider Rusiya-Ukrayna müharibəsinin dayandırılmasının zərurətini vurğulayıblar. Bu görüşlər Vaşinqtonda da diqqətlə izlənilib.**

Təsadüfi deyil ki, ABŞ dövlət katibi Entoni Blinken bildirib ki, Çin və Hindistanın Ukraynada müharibə barədə qorxusu müharibəni dayandırmaq üçün Rusiyaya təzyiqi gücləndirib: ”Bu, sadəcə faktın təzahürüdür ki, həmin təcavüz planetin bütün insanlarının maraqlarına qarşı yönəlmiş təcavüzdür”.

**Politoloq Elxan Şahinoğlu bildirib ki, Çin və Hindistan Rusiya-Ukrayna müharibəsinin ona görə dayandırılmasının tərəfdarıdırlar ki, Asiya bölgəsində oxşar gərginliklər yaşanmasın. Analitikə görə, Vaşinqton da Rusiya-Ukrayna müharibəsinin oxşarının Asiya bölgəsinə sıçramasını istəmir:** ”Ancaq Tayvan adası ətrafında baş verənlər bu bölgədə müharibə ehtimalını artırıb. ”Reuters” agentliyinin məlumatına görə, Vaşinqton Tayvanla bağlı Çinə qarşı sərt sanksiyaların tətbiqini nəzərdən keçirib. Vaşinqtonun məqsədi yeni sanksiyalar vasitəsilə Pekinin Tayvana gələcək müdaxiləsinin qarşısını almaqdır. Sanksiyalar içərisində Çinlə ticarətin nisbətən məhdudlaşdırılması, investisiyaların azaldılması və telekommunikasiya sahəsində əməkdaşlığın yenidən nəzərdən keçirilməsidir. Tayvan ABŞ-la yanaşı Avropa İttifaqının da Çinə qarşı sanksiyalar tətbiqini istəyir. Çünki Çinin Avropa ölkələri ilə sıx ticarət əməkdaşlığı mövcuddur, böyük investisiya layihələri gerçəkləşdirilir”.

**Ekspert vurğulayıb ki, ABŞ Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Tayvana səfəri bu ökə ilə Çin arasında münasibətləri daha da gərginləşdirib:** ”Pelosidən sonra ABŞ-dan Tayvana daha 3 nümayəndə heyəti səfər edib. Bu arada, Tayvanın Müdafiə Nazirliyi yaxınlıqdakı adalarda istehkamları möhkəmlətməkdə davam edir. Məqsəd ada üzərində uçuşlar həyata keçirən Çinə məxsus pilotsuz uçuş aparatlarını zərərsizləşdirməkdir. Son aylarda Çin dronları ada ətrafında uçuşlar həyata keçirirlər. Tayvan hərbçiləri sentyabrın 1-də Çinə məxsus dronlardan birini vurublar. Tayvan və ABŞ hesab edir ki, Çinə məxsus dronların ada ətrafında uçuşları mümkün müharibənin işartısı ola bilər”.

**İsmayıl**



# Türkiyə elə Qərb deməkdir

## Rusiya da əslində bundan narahatdır

İsmayıl Qocayev

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-da ”PBS” televiziyasına müsahibəsində Türkiyənin Şanxay Əməkdaşlıq Təşkilatına üzv olmaq niyyəti ilə bağlı danışıb. Ərdoğan deyib ki, Avropa İttifaqı 52 ildir onları ”qeyri-müəyyən vəziyyətdə” saxlayır:**

”Biz NATO ölkəsi olsaq da, hətta NATO ölkələri Avropa İttifaqı prosesində bizi gözlədir. İstər-istəməz fərqli axtarışlara girmək vəziyyətində ola bilərik. Avropa İttifaqı bizi 52 il tutub saxlayacaq, ona yaxınlaşmağa imkan verməyəcək və ondan sonra ”niyə burada görüşdü, niyə orda görüşdü?” deyəcək. Görüşərəm”. Türkiyə lideri bildirib ki, təhlükəsizlikdən iqtisadiyyata, enerjidən nəqliyyata, kənd təsərrüfatından turizmə qədər bütün sahələrdə əməkdaşlıq etməyə hazırdırlar. Rusiyanın Şanxay Əməkdaşlıq Təşkilatındakı (ŞƏT) xüsusi nümayəndəsi Bəxtiyar Hakimov isə deyib ki, Türkiyə Şanxay Əməkdaşlıq Təşkilatına qoşulmaq istəyirsə, NATO üzvü olmamalıdır. Hakimovun sözlərinə görə, Türkiyə uzun müddətdir dialoq tərəfdaşı kimi ŞƏT-in fəaliyyətlərində iştirak edir: "Müraciət daxil olarsa, diqqətlə müzakirə ediləcək. Hazırda heç bir müraciət almamışıq". Hakimov onu da deyib ki, Türkiyə ŞƏT-ə üzv olması üçün bir sıra meyarlara cavab verməlidir: "Yeni üzvlərin qəbulu üçün bir sıra meyarları özündə əks etdirən əsasnaməmiz var. Bu meyarlara Avrasiya regionunda yer almaq, aktiv diplomatik və ticarət-iqtisadi münasibətlərə malik olmaq, ŞƏT-ə üzv dövlətlərlə mədəni əlaqələrə malik olmaq, ŞƏT ölkələri ilə münaqişədə olmamaq, xarici münaqişələrə cəlb edilməmək, BMT Təhlükəsizlik Şurasının sanksiyalarına məruz qalmamaq, həmçinin ŞƏT üzvlərinə qarşı düşmənçilik və ya onlara qarşı fəaliyyət göstərmək və bloklarda yer almamaq daxildir".

**Siyasi şərhçi Rusif Məmmədsoy deyib ki, ümumi mənzərə ondan ibarətdir ki, Türkiyə NATO-dan incikdir və başına gələn bəlaların bir çoxunun səbəbkarı məhz qərb ”tərəfdarlarıdır”. Ancaq bu o demək deyil ki, Türkiyə belə asanlıqla bu hərbi alyansdan tamamilə uzaqlaşar:** "Ərdoğan Nyu-Yorkda bir sıra vacib şəxslərlə görüşdü. Görüşlərdən biri də Respublikaçıların ən nüfuzlu üzvlərindən biri, senator Lindsay Grahamla oldu. Graham da açıqlamasında bildirib ki, Türkiyə ilə fikir ayrılıqlarına rəğmən onlar üçün vacib tərəfdaşdır və Bayden admini F-16 ların Türkiyəyə tədarükü ilə bağlı addımlar atmalıdır. Bəli, Türkiyə nə qədər də regionda Rusiya ilə əməkdaşlıq içərisində olsa da, bir çox məsələlərdə maraqları üst-üstə düşsə də Türkiyə elə Qərb deməkdir. Rusiya da əslində bundan narahatdır. Rusiya açıq şəkildə deyir ki, balans saxlamayın, tərəfinizi seçin".

**Ekspert bəyan edib ki, Türkiyə regionun açar ölkəsidir:** "Türkiyənin harda, kimin yanında olması olduqca vacibdir. Türkiyə daxildə ciddi problemlərlə üz-üzədir. Xüsusilə də iqtisadi vəziyyət ürəkaçan deyil. Bu vəziyyətin də əsas səbəbkarı məhz Qərbdir. Sadəcə iqtisadi deyil, hərbi müstəvidə də Türkiyəyə qarşı planlar var. Yunanıstan Türkiyəyə qarşı qaldırılır və Türkiyənin öz regionunda başının qatılmasına hesablanıb. Rusiya tərəfi isə Türkiyədə keçiriləcək növbəti seçkilərdə Ərdoğanı dəstəkləyir və yenidən seçilməsi üçün hər şeyi etməyə hazır görünür. Onu da qeyd edək ki, bu ilin sonuna qədər iki ölkə arasındakı ticarət dövriyyəsinin 60 milyard dollara çatması gözlənilir. Türkiyə üçün hazırkı situasiyada birmənalı şəkildə qarşı tərəfə keçməsi risksiz deyil. Türkiyə rəhbəri balanslı siyasətdə maraqlıdır. Eyni zamanda Rusiya ilə də əməkdaşlığın daxildəki vəziyyəti də düzəldəcəyinə ümid edir. Hər halda Rusiyanın sualının cavabsız qalacağına və ya suala tam cavab verilməyəcəyini düşünürəm. Vəziyyət elə bir yerə gəlib çatıb ki, Türkiyə uğrunda mübarizə başlayır. Türkiyənin harada olması çox vacib və əhəmiyyətlidir".

# Ruslar müharibəyə qarşı çıxır

## Fuad Abbasov: “Mitinqlər Putin hakimiyyətinin istefasına səbəb ola bilər”



**Rusiya Prezidenti Vladimir Putin dünən xalqa müraciətində ölkədə qismən səfərbərlik elan olunduğunu açıqlayıb. Rusiyanın Müdafiə naziri, ordu generalı Sergey Şoyqu isə ehtiyatda olan 300 min nəfərin qismən səfərbərlik çərçivəsində orduya çağırılacağını bildirib.**

Müharibə əleyhdarları isə qismən səfərbərliyə qarşı ümum-Rusiya mitinqi elan ediblər. Etiraz aksiyalarının təşkilatçısı "Vesna" Gənclər Hərəkatıdır.

Fəallar vətəndaşları bu gün, sentyabrın 21-də Moskva vaxtı ilə 19:00-da (Bakı vaxtilə 20:00-da) yaşadıqları şəhərlərin mərkəzində toplaşmağa çağırıb. Onlar aksiyanı "Məzarlaşmağa yox" adlandırıblar.

**Məsələyə münasibət bildirən siyasi şərhçi Fuad Abbasov "Sherg.az”a bildirib ki, mitinqlər Putin hakimiyyətinin istefasına səbəb ola bilər:** "Rusiyada fevralın 24-dən bu yana müharibə əleyhdarlarına qarşı ciddi müdaxilələr edilir. Hətta yekun qanunlarla müharibə sözünü dilə gətirənlərə 30 min rubl, savaşa qarşı çıxanlara 300 min rubl (səlahiyyətli şəxslərə həbs cəzası) cərimə kəsilməyə başlanıldı. Putin hakimiyyəti döyüşməyə qarşı olanlara, diktaturaya xas cərimələr tətbiq edir.

Buna rəğmən Rusiyanın bir çox şəhərlərində hərbi komissarlıqların yandırılması və mitinqlərin baş tutması müharibə əleyhdarlarının qorxmadığını göstərir. Onlar kiminsə xahişi və göstərişi üçün deyil, doğrudan da savaşa qarşı çıxırlar. Buna görə də Vladimir Putin qismən səfərbərlik elan etdi.

Qismən səfərbərlik açıq müharibə elan etməyə icazə vermir. Ukraynaya qarşı müharibənin tam başlanması üçün gərək ümumi səfərbərlik elan olunsun.

Bununla Putin özünü sığortalayaraq müharibə yox, hərbi əməliyyatlar apardığını deyir. Mitinqlərin qarşısı alınmadığı təqdirdə gedişat iqtidarın istefasına gətirib çıxara bilər.

Ukraynadakı əməliyyatların müvəffəqiyyətsizliyinin cəzası birbaşa Putin iqtidarına kəsiləcək. Bunun işartıları bugünkü aksiyalarda artıq özünü göstərməyə başlayıb".

**Nihat Müzəffər**

# Müharibənin sona çatmasını istəyirik

## Bayden Rusiyanın qismən səfərbərlik elan etməsini ”uğursuzluq”, ”zəiflik” kimi qiymətləndirib



**Rusiya və Ukrayna arasında müharibənin sona çatmasını istəyirik.**

APA xəbər verir ki, bu barədə ABŞ Prezidenti Co Bayden Birləşmiş Millətlər Təşkilatının 77-ci Baş Assambleyasında (BMT) çıxışı zamanı bildirib.

”Putin yenə məsuliyyətsiz açıqlamalar verir”, - Bayden vurğulayıb.

ABŞ lideri Rusiyanın qismən səfərbərlik elan etməsini "uğursuzluq", "zəiflik" kimi qiymətləndirib.

"Heç kim Rusiyanı təhdid etmir. BMT Təhlükəsizlik Şurasının daimi üzvü Rusiya qonşusunu işğal edərək suveren bir dövləti xəritədən silmək istədi. Birləşmiş Millətlərdəki 183 ölkə Rusiyanın müharibəsini qınayır. 25 milyard dollardan artıq Ukraynaya yardım etmişik. ABŞ savaşın sona çatmasını istəyir. Bizim sanksiyalarımız açıq şəkildə Rusiyanı hədəf alır. Ancaq bu, Rusiyanın qida ixracatına qarşı deyil. Eyni zamanda, taxıl dəhlizindəki liman sayını artırmalıyıq. Dünyadakı qida məsələsində yaşanan problemlər Rusiyanın məsuliyyətidir. Qida təhlükəsizliyi məsələsində çalışmağa davam edəcəyik. Hamımız dəqiq olmalıyıq, qüvvətli olmalıyıq", - Bayden qeyd edib.

# Ermənistan KTMT-dən çıxsa orada İrandakı hadisələr yaşanacaq

## Əziz Əlibəyli: “Bu, Paşinyan hakimiyyətini tabuta qoyaraq üstünü torpaqlamaq deməkdir”

**ABŞ Konqresi Nümayəndələr Palatası sədri Nensi Pelosi Ermənistan Baş naziri Nikol Paşinyan və parlamentdənkənar siyasi qüvvələr arasında keçirilən görüşdə İrəvanın Rusiyanın rəhbərlik etdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmaq məsələsi müzakirə olunub.**



Bu barədə Ermənistanın "Respublika" partiyasının sədri Aram Sarkisyan jurnalistlərə bildirib. Sarkisyan və iclasda iştirak edən bir neçə həmkarı İrəvanın KTMT üzvlüyünə dərhal xitam verilməsi ilə bağlı təklif səsləndirib.

O qeyd edib ki, Nümayəndələr Palatası sədrinin İrəvana səfərini müsbət cavab hesab etmək olar. Nensi Pelosi açıq şəkildə Ermənistana "əlini uzadır" və bizi bütün məsələlərdə dəstəkləməyə hazır olduğunu deyir.

"Respublika" partiyasının rəhbəri əlavə edib ki, KTMT-yə üzv olmağımız yeni hərbi texnologiyalarla hazırlanan silah və sursat almağımıza mane olur. Rusiya silah-sursatı və texnologiyaları ilə isə biz həmişə Azərbaycana uduzacağıq.

**Ermənistanın KTMT-dən çıxmasının onun təhlükəsizliyinə birbaşa zərbə vuracağını deyən beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli "Şərq”ə bildirib ki, rəsmi İrəvanın siyasi blokunda yaranan çatlara görə bu təklifin parlamentdən keçəcəyini düşünmür:** "Ermənistanın KTMT-dən çıxması suallar yaradır. Burada müxtəlif senarilər var. Birincisi, Azərbaycanla müharibədə olan ermənilər tək qalırlar. İkincisi, bəlkə Fransa doğrudan İranla razılaşıb ki, Rusiyanı rəsmi İrəvandan qovsun. Digər tərəfdən rəsmi Moskvanın 102-ci diviziyası Ermənistanda yerləşir. Dövlət sərhədlərinin əksəriyyətini ruslar qoruyur. KTMT-dən çıxmaq onsuz da laxlayan Paşinyan hakimiyyətini tabuta qoyaraq üstünü torpaqlamaq deməkdir. Burada yalnız mismarı kimin vuracağı maraqlıdır. Rusiyanın indiki məqamda izlədiyi faktiki xətt Ermənistanda baş verəcək qanlı senarilərin onun əli ilə baş tutmamasıdır. Amma prosesler buna aparır ve bu, rəsmi İrəvan üçün vətəndaş müharibəsinin başlaması deməkdir. Əgər KTMT-dən çıxılsa, bu gün İranda baş verənlər orada da təkrarlanacaq".

**Nihat Müzəffər**

# "Zass və Pelosi o gücdə deyil"

## Tofiq Zülfüqarov: ”Rəsmi İrəvan həmişəki kimi bizim ərazi bütövlüyümüzü tanımaq istəmir”



**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Baş katibi Stanislav Zas Ermənistana səfər edib.**

Səfərin məqsədi Ermənistan-Azərbaycan sərhədindəki vəziyyəti qiymətləndirmək və təşkilata üzv dövlət başçılarına məruzə etməkdir.

Xatırladaq ki, sentyabrın 13-də Moskvada Kollektiv Təhlükəsizlik Şurası Stanislav Zasın başçılığı ilə təşkilatın missiyasının Ermənistana göndərilməsi ilə bağlı razılıq əldə edib.

Qeyd edək ki, bundan öncə polkovnik Anatoli Sidorovun rəhbərlik etdiyi KTMT missiyasının ilkin qrupu sentyabrın 15-də Ermənistana gəlib. Qrup Ermənistan sərhədinin müxtəlif hissələrini ziyarət edib, əməliyyat vəziyyəti ilə tanış olub.

Regionda Ermənistan-Azərbaycan arasında mübahisəli durum olduğunu deyən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Şərq"ə bildirib ki, Zass və Pelosi kimi şəxslər bu məsələni həll edəcək gücdə deyillər: "Ermənilərin müraciətində Türkiyə və Azərbaycanın guya onların sərhədini pozduğu göstərilir. Vəziyyətlə maraqlanmaq üçün də Stanislav Zassı ora göndəriblər. Lakin biz yaxşı bilirik ki, Ermənistanın ərazi bütövlüyü kimi məfhum yoxdur.

Onlar müxtəlif dövrlərdə Azərbaycan ərazilərinə iddialarını açıq şəkildə bəyan ediblər. Rəsmi İrəvan həmişəki kimi bizim ərazi bütövlüyümüzü tanımaq istəmir. Bu şəraitdə KTMT Baş katibinin səfəri heç nəyi həll etməyəcək".

**Nihat Müzəffər**

# Ən çox hücumlar banklara və bank kartlarına olur

## Azərbaycanda kibercinayətkarlığa qarşı mübarizədə ciddi problemlər var

Şəymən Bayramova

**Son zamanlar Azərbaycanda kiberhücumların sayı kəskin artıb.**

**Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəis müavini Azər Əhədov isə buna səbəb kimi məlumatlılığın az, kibergigyenanın aşağı səviyyədə olmasını göstərib.**

Maraqlıdır, kiberhücumların sayı niyə artır? Bunun qarşısını almaq üçün nə etməliyik?

**İKT mütəxəssisi Anar Bayramov ”Şərq”ə açıqlamasına görə, kibercinayətkarlıq məsələsi ölkəmiz üçün hər zaman aktualdır və cəmiyyətin bütün tərəfləri bu cinayətkarlıqdan bu və ya digər şəkildə əziyyət çəkir:** "Kiberhücumlar sərhəd tanımır və bütün sektorların həmişə onlarla qarşılaşma riski var. Ona görə də bu gün kibertəhlükəsizlik ölkələrin, cəmiyyətlərin bütün səviyyələrinə təsir edən strateji milli məsələyə çevrilib.

Azərbaycanda bu istiqamətdə müxtəlif işlər görülsə də, bir çox ciddi problemlər hələ də qalmaqdadır.

Bu gün cəmiyyətin müxtəlif təbəqələrindən olan, müxtəlif peşələrdə çalışan insanlar kibercinayətkarlığla rastlaşır. Bundan heç kim sığortalanmayıb. O cümlədən hazırda bu problem bank sektorunda da ciddi problemlər törədir. İnsanların bank hesablarından vətəndaşın özünün razılığı olmadan vəsaitlərin çıxarılması ilə bağlı müxtəlif faktlar müşahidə olunur. Səbəb isə odur ki, dövlət qurumlarında və şirkətlərdə şəbəkələr necə gəldi qurulur. Təhlükəsizlik tədbirlərinə əməl olunmur. Adi istifadəçi səviyyəsində belə məlumatlarımız qorunmur. Məlumatlar bulud texnologiyasına yüklənmir və şirkətlərin vacib məlumatları lokal yaddaşda saxlanılır. Əslində bu çox mənfi haldır. Çünki sistem hər an çökə bilər. Hakerlər serverlərdəki boşluqlardan istifadə edib belə hücumlar təşkil edir. Şirkətlərin, dövlət qurumlarının vacib informasiyaları oğurlanır. Məlumatların surəti başqa bir yerdə olmadığına görə həmin hakerdən asılı qalırlar. Saytların çoxu lokal server üzərində yığılır. Texnologiya elə bir şeydir ki, heç vaxt tam təhlükəsizliyi təmin etmək mümkün deyil. İT daim inkişafda olan bir sahədir".



“Bir daha hər bir vətəndaşımızdan xahiş edirik ki, telefonun poçt qutusuna - e-mailinə gələn, sizə aid olmayan heç bir məlumatı açmayasınız”

**Ekspertin sözlərinə görə, istifadəçilər bənzər hücumlardan qorunmaq üçün diqqətli olmalıdır:** "Bilmədiyimiz, anlamadığımız, bizə mesaj vasitəsilə göndərilən heç bir linki və yaxud da hər hansısa bir faylı açmaq lazım deyil. Ən çox hücumlar banklara və bank kartlarına olunur ki, bu da istifadəçilərin çox da məlumatlı olmamasından irəli gəlir. Və beləliklə də kiberhücum edən tərəfə bank kartlarından istifadə etmək daha asan başa gəlir. Bir daha hər bir vətəndaşımızdan xahiş edirik ki, telefonun poçt qutusuna - e-mailinə gələn, sizə aid olmayan heç bir məlumatı açmayasınız. Bank kartınız haqqında hər hansı bir bildiriş gələrsə, dərhal kartınız hansı banka məxsusdursa, onunla əlaqə saxlayıb kartınız və hesablarınızı dondura bilərsiniz".



### Əvəz Zeynallının ev dustaqlığı barədə vəsatəti təmin edilmədi

**”Xural” internet televiziyasının rəhbəri Əvəz Zeynallı barəsində seçilmiş həbs qətimkan tədbirinin ev dustaqlığına dəyişdirilməsi ilə bağlı vəsatətə baxılıb.**

Binəqədi Rayon Məhkəməsində hakim Vüsal Tağıyevin sədrliyi ilə baxılan iş üzrə qərar elan olunub.

Məhkəmə Əvəz Zeynallı barəsində seçilmiş həbs qətimkan tədbirinin dəyişdirilməsi üçün əsaslar olmadığı qənaətinə gələrək vəsatəti təmin etməyib.

Əvəz Zeynallıya qarşı eyni zamanda əlavə ittiham irəli sürülüb.

APA xəbər verir ki, ona Cinayət Məcəlləsinin 312-1*(vəzifəli şəxsin qərarına qanunsuz müdaxilə göstərmə-nüfuz alveri)* maddəsi ilə də ittiham irəli sürülüb.

*Qeyd edək ki, Əvəz Zeynallı Cinayət Məcəlləsinin 311.3.3 (külli miqdarda rüşvət alma) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində Binəqədi rayon Məhkəməsinin qərarı ilə 4 aylıq həbs qətimkan tədbiri seçilib.*



# Əmininin ATƏŞİ yandırdı

## İranda sosial partlayışın olacağı əvvəlcədən proqnozlaşdırılırdı

İsmayıl Qocayev

**İranda Məhsa Əmini adlı 22 yaşlı gənc qadının ölümündən sonra baş verən etirazlar az sonra iğtişaşlara və toqquşmalara çevrilib. Etirazlar kürdlərin yaşadığı və Məhsa Əmininin mənsub olduğu Kürdüstan əyalətinin Sənəndəc şəhərindən başlayıb. Rəşt və Tehranda baş tutan etirazlar az sonra iğtişaşlar və təhlükəsizlik qüvvələrilə toqquşmalara çevrilib.**

İranın Məşhəd şəhərində etirazçılar təcili tibbi yardım və polis avtomobilini yandırıb. Etirazçılar zibil qutularını aşırıb, yandırıb, bəzi şəhər lövhələrinə ziyan vurublar, təcili tibbi yardım avtomobilinə hücum edərək onu yandırıblar. Mitinqi dağıtmaq üçün gələn polis nəfəri etirazçılar tərəfindən yandırılıb. Aksiyalarında hökumət əleyhinə şüarlar səsləndirilib. Sosial mediada Mehsa Əmininin ölümünə etiraz olaraq bəzi qadınlar saçlarını kəsiblər. Aksiyalar Tehran, Təbriz, İsfahan da daxil olmaqla 13 şəhərə yayılıb. Etnik kürdlərin çox olduğu Kürdistan, Kirmanşah, İlam və Qərbi Azərbaycan əyalətlərində də insanlar etirazlara başlayıb. Məlumata görə, təhlükəsizlik qüvvələri tərəfindən açılan atəş nəticəsində 3 nəfər həyatını itirib, təxminən 250 nəfər isə saxlanılıb. BMT-nin İnsan Haqları Komitəsi Əmininin ölümü və hüquq-mühafizə orqanlarının aksiyanı dağıtma cəhdlərini narahatlıqla qarşıladıqlarını bildirib. İran Prezidenti Əli Rəisi Məhsa Əmininin ölümü ilə bağlı araşdırma işinin başlanması haqda göstəriş verib.

1979-cu ildə devrilmiş şah Məhəmmədrza Pəhləvinin mühacirətdə yaşayan oğlu Rza Kir Pəhləvi son günlər İranda vüsət alan etiraz aksiyalarını dəstəkləyərək, xalqa müraciət edib. Müraciətini sosial şəbəkələrdə paylaşan Rza Pəhləvi hazırkı aksiyaları 2017-ci ilin oktyabr ayından bəri ən geniş yayılmış etiraz dalğası kimi qiymətləndirib: ”Bu etirazları fərqləndirən cəhət qadınların cəsarət nümayiş etdirərərk, ”qadın, həyat, azadlıq!” deyə qışqıran liberal kişilərə dəstək və həmrəy olmasıdır. Zəkanızla, möhkəmliyiniz və cəsarətinizlə fəxr edirəm. Siz gələcəyinizi qurmağa qərar vermisiniz”. Pəhləvi siyasi və sivil qüvvələri, sənətçiləri və idmançıları, tələbələr və müəllimləri, fəhlələr və təqaüdçüləri xalq etirazlarına dəstək olmağa çağırıb. O, etirazların ağıllı şəkildə koordinasiya edilməsinin vacibliyini vurğulayıb və bildirib ki, koordinasiya edilməyən aksiyalar məhvə məhkumdur: ”Etirazların və tətillərin daha əhatəli davam etdirilməsi qələbənin açarıdır”. Şahın varisi İran hakimiyyətinin məmurlarını xalqın tələblərilə razılaşmağa çağırıb: ”Bilin ki, xalqın iradəsinə təslim olmaqdan başqa sonunuz yoxdur. Nə qədər ki, imkan var, xalqın açıq qucaqlarına qoşulmaq sizin xeyrinizədir”.





“Tehran səhvlərindən dərs almalıdır, əgər 40 milyon soydaşımıza çağırış edilsə, molla rejiminin vəziyyəti daha ağır olar”

İranda demək olar hər il baş verən qanlı etirazlar, xalq kütlələrinin küçələrə çıxaraq ədalət tələb etməsi əslində sosial vəziyyəti acınacaqlı duruma düşmüş, ekoloji problemlərdən təngə gəlmiş və din pərdəsi altında ən elementar hüquq və azadlıqları əlindən alınmış toplumun qəzəbini bir şəkildə kimdənsə çıxmasına bənzəyir. Budəfəki etirazlar digərlərindən fərqlidir. İranda bu gün baş verənlər ölkədəki mənəvi xaosun əlamətidir. İran hökuməti hər dəfə olduğu kimi birmənalı yenə xarici agentura şəbəkəsini və terrorçuları günahlandırır. Artıq ”üç ayrı ölkədən” olan xarici casusların ”gecə əməliyyatı” ilə saxlanılması barəsində məlumatlar da yayılıb.

**AĞ Partiya sədri Tural Abbaslı**

**”Şərq”ə açıqlamasında deyib ki, hər dəfə İranla bağlı danışanda bəyan edirdik ki, Tehran rejimi ilk növbədə öz daxilinə yönəlməli, ölkədəki problemlərin həlli ilə məşğul olmalıdır. Çünki bu narazı gedişlə, bir gün İranda sosial partlayış olacağı əvvəlcədən proqnozlaşdırılırdı:** ”İranın Azərbaycan-Ermənistan məsələsində, Zəngəzur dəhlizi mövzusunda yanaşması qaneedici deyil. Ümid edək ki, belə qarşıdurmalar İrana dərs olacaq və qonşumuz yanlış mövqeyindən düzgün nəticə çıxaracaq. Azərbaycanda müəyyən kəsimlərin Cənubi Azərbaycandakı 40 milyon soydaşımıza çağırış etməsi, onları aksiyalara səsləməsi molla rejimini daha ağır vəziyyətə sala bilər. Düşünürəm ki, İran indiki halda öz problemlərini həll etməyə çalışmalıdır. Belə yanlış siyasət yürüdən, xalqını əzən, təzyiq altında, kasıb vəziyyətdə saxlayan, müsəlman ölkəsi olan Azərbaycanla deyil, xristian və işğalçı Ermənistanla yaxınlıq edən rejim getsə yaxşıdır və getməlidir. İrandakı dəyişiklik həm iranlılar, həm də region üçün faydalı ola bilər. Azərbaycan İrandakı prosesləri diqqətlə izləyir. Hadisələrə öz maraqlarımız çərçivəsində reaksiya verməliyik”.

**T.Abbaslı onu da vurğulayıb ki, istənilən ölkədə baş verən qarşıdurmalar, münaqişələr, stabilliyin pozulması halları birmənalı şəkildə qonşu dövlətlərə də təsirini göstərir:** ”İran kimi bir ölkədə daxili çaxnaşmaların baş verməsi və nəticələri dünyada siyasi-iqtisadi proseslərə təsirsiz ötüşməyəcək. İrandakı etiraz dalğasının sadəcə bir qızın öldürülməsinə görə başladığını söyləmək doğru olmaz. Səbəblər çoxdur və Əmini olayı genişmiqyaslı aksiyalara başlamaq üçün bəhanədir. Burada ABŞ-ın, Avropanın, yəni kənar qüvvələrin rolu, eyni zamanda ölkədaxili qrupların çəkişməsi də mümkündür. Bir çox şəhərlərdə etiraza çıxanların böyük əksəriyyəti siyasi şüarlar səsləndirirlər, ali rəhbərə, hökumətə qarşı çıxışlar edirlər. İstənilən halda hadisələrin nə ilə nəticələnəcəyini gözləmək lazımdır. Bir neçə gündən sonra qarşıdurma səngiyə də bilər”.

# Təşkilat Komitəsinin növbəti iclası keçirilib

## Mətbuat Şurasının İdarə Heyətinə ən çox səs toplayan namizədlərin siyahısı açıqlandı




**Dünən Azərbaycan jurnalistlərinin VIII qurultayının keçirilməsi üzrə Təşkilat Komitəsinin növbəti iclası keçirilib. Toplantıda üç məsələ müzakirəyə çıxarılıb.**

Birinci məsələ ilə əlaqədar məlumat verilib ki, müxtəlif media təmsilçiləri qurultayı işıqlandırmaq istəyən jurnalistlərin ali məclisdə iştirakı ilə bağlı suallar ünvanlayırlar. Onların sərbəst fəaliyyətlərinin təmin edilməsi şərtdir. Bu zaman qurultayın keçirilmə yerinin imkanları nəzərə alınmalıdır. Təşkilat Komitəsi ali məclisi işıqlandıracaq jurnalistlərin ayrıca qeydiyyatının aparılmasını məqbul sayıb. Belə ki, KİV-lər bununla bağlı info@pressocuncil.az e-mailinə 23 sentyabr 2022-ci il saat 15.00-dək yazılı məlumat göndərməlidirlər. Məlumatda qurultayda jurnalist kimi iştirak edəcək əməkdaşların adları qeyd edilməlidir. Məlumat KİV-in rəsmi blankında olmalı, möhür və imza ilə təsdiqlənməlidir. Telekanallar 3, gündəlik qəzetlər və informasiya agentlikləri 2, digər informasiya resursları isə qurultayı işıqlandıracaq 1 nümayəndə göndərə bilərlər.

İclasda müzakirəyə çıxarılmış ikinci məsələ MŞ İdarə Heyətinə namizədlərin siyahısı olub. Təşkilat Komitəsi yekun seçki bülleteninə ən çox səs toplamış 46 namizədin adını daxil edib. Qeyd edək ki, qurultayda MŞ İdarə Heyətinə 28 jurnalist namizəddən 14-ü, 18 ictimaiyyət nümayəndəsi olan namizəddən isə 9-u seçiləcəkdir.

İclasda qurultay nümayəndələrinin siyahısı da nəzərdən keçirilib. TK-nın qərarına əsasən siyahı 23 sentyabr 2022-ci il tarixində Mətbuat Şurasının presscouncil.az saytında yerləşdiriləcəkdir.

*Qeyd edək ki, Azərbaycan jurnalistlərinin VIII qurultayı 24 sentyabr 2022-ci il tarixdə Beynəlxalq Muğam Mərkəzində (Ünvan Neftçilər prospekti 30, Dənizkənarı Milli Park) keçiriləcəkdir. Qeydiyyat saat 09.00-dan 10.00-dək aparılacaqdır. Saat 10.00-da qurultay işinə başlayacaqdır.*

# Qayıdışa ciddi hazırlıq gedir

2023-cü ildə Qarabağda kütləvi məskunlaşma müşahidə olunacaq



**Qarabağa ”Böyük Qayıdış”la bağlı qanunvericilik aktı hazırlanacaq. Bu məsələ Milli Məclisin İnsan hüquqları komitəsinin payız sessiyası üçün İş planına daxil edilib.**

Sənədə əsasən, komitə Qarabağa ”Böyük Qayıdış”la bağlı qanunvericilik aktının hazırlanmasına dair müvafiq dövlət, hökumət qurumları ilə birgə iş təşkil edəcək. Komitə sədri Zahid Oruc bildirib ki, sənəd üzərində son tamamlama işləri gedir.

**Millət vəkili Vüqar Bayramov ”Şərq”ə bildirib ki, artıq praktik olaraq ”Böyük Qayıdış”a start verilib. Deputat bildirib ki, Zəngilana ilk qayıdış həyata keçirilib:** ”Bu isə ondan xəbər verir ki, çox yaxın zamanlarda biz digər rayonlarımızda da qayıdışı mühaşidə edə biləcəyik. Bir tərəfdən Zəngilana qayıdışın həyata keçirilməsi, digər tərəfdən ümumən bu istiqamətdə ciddi addımların atılması göstərir ki, ”Böyük Qayıdış” intensiv və sistemli şəkildə həyata keçiriləcək. Mövcud infrastrukturu və ilkin məskunlaşma ilə bağlı görülən işləri nəzərə alsaq, deyə bilərik ki, 2023-cü ilin ikinci yarısında biz yeni məskunlaşmanın həyata keçirilməsini müşahidə edəcəyik. Əsas prioritet ondan ibarətdir ki, öz ata-baba yurdlarına qayıdan ailələr işlə təmin olunsunlar, onların məşğulluğu təmin edilsin. Cənab Prezidentin də göstərişi məskunlaşmış vətəndaşlarımızın işlə təminatının həyata keçirilməsidir. Bu istiqamətdə də kifayət qədər sistemli addımlar atılmaqdadır. Bütövlükdə qayıdış prosesi mərhələli şəkildə reallaşır. İşlərin intensiv həyata keçirilməsi və 2023-cü ildə əlavə 3 milyard manatın ayrılmasının layihələşdirilməsi də ondan xəbər verir ki, növbəti dövrdə daha kütləvi və eyni zamanda sistemli şəkildə həyata keçirilməsini görəcəyik”.

**İsmayıl Qocayev**



# “Qanun hazırlanmalıdır”

## Elman Nəsirov: “Sosial şəbəkələr haqqında” qanun layihəsinin hazırlanmasına başlanılsın”

**“Sosial şəbəkələr cəngəllik qanunları ilə idarə olunur, qanun hazırlanmalıdır”.**

*Bu təkliflə Milli Məclisin İnsan hüquqları komitəsinin dünən keçirilən iclasında deputat Elman Nəsirov deyib. Deputat təklif edib ki, ”Sosial şəbəkələr haqqında” qanun layihəsinin hazırlanmasına başlanılsın:* ”Sosial şəbəkələrdə təhqirlər çoxdur. Mən İnsan hüquqları komitəsinin üzvü olaraq öz hüquqlarımı sosial şəbəkələrdə müdafiə edə bilmirəmsə, başqasının hüquqlarını necə müdafiə edim? Biz bu qanun layihəsinin hazırlanması üçün təşəbbüsü ələ almalıyıq. Sosial şəbəkələr cəngəllik qanunları ilə idarə olunur, insanlar təhqir olunur, böhtan atılır. Nəhayət, biz sosial şəbəkələr haqqında qanun layihəsinin hazırlanmasına başlamalıyıq”.

**E.Nəsirov informasiya təhlükəsizliyi ilə bağlı dinləmə keçirilməsini də təklif edib:** ”Xaricdə oturub Azərbaycana şər-böhtan atan bloqerlər, sapı özümüzdən olan baltalar var”. Həmçinin, bildirib ki, bu gün məhkəmələrdə bəlkə də ədalətli qərarlar verilir, amma bu qərarların icrasında süründürməçilik var. Ən çox şikayətlər bununla bağlıdır. Məhkəmə qərarlarının icrasının təmin edilməsi üçün biz addımlar atmalıyıq”.

**İsmayıl**

# Ermənistan Rusiyadan qopa bilmir

## Həşim Səhrablı: “Fiqurlar dəyişəcək, amma rəsmi İrəvanın dövlət siyasəti, strukturu, maraqlarının dəyişməsini gözləmək bir az sadəlövhlük olardı”



**”Ermənistandakı kadr islahatının iki səbəbi ola bilər. Birincisi, məlum olduğu kimi, ABŞ Konqresində Nümayəndələr Palatasının sədri Nensi Pelosi Ermənistana səfər etdi. Bununla da rəsmi İrəvanın daxili arenası və xarici siyasətində bir çox dəyişikliklərə səbəb olacağı yönündə məlumatlar yayıldı”.**

*Bu barədə hərbi-siyasi ekspert Həşim Səhrablı ”Şərq”ə danışıb. Onun sözlərinə görə, daha sonra Rusiyanın ən yüksək səviyyədəki diplomatları Ermənistanla siyasi əlaqəyə keçiblər:* ”Hər halda bu, Ermənistan-ABŞ münasibətlərinin nə dərəcədə dəyişməsi ilə bağlı idi. İndi də Rusiya Prezidenti Vladimir Putinin Ermənistana səfər edəcəyi ilə bağlı xəbərlər oxuyuruq. Təbii ki, baş verən hadisələrin fonunda Ermənistandakı kadr dəyişikliklərini anlamaq çətin deyil. Bilinir ki, rəsmi İrəvanın siyasi elitası Qərbmeyilli olmasına baxmayaraq, güc strukturlarında, xüsusilə də Ermənistan ordusunda hələ də rusmeyilli qüvvələr əsas mövqelərdə dayanırlar. Hərbi prokurorluqda sözügedən dəyişikliklərin yaşanması və xüsusən, Kremldə narazılıqların artması Ermənistanın Amerikadan dəstək alması ilə bağlıdır.

Çünki Ermənistanın Baş naziri Nikol Paşinyan iqtidara gəldiyi ilk günlərdən indiyə qədər ölkəsini Rusiyanın asılılığından çıxartmağı hədəfləyib. Əvvəl də dediyimiz kimi, Ermənistan müstəqil dövlətdən daha çox rəsmi Moskvanın layihəsi kimi fəaliyyət göstərir. Yəqin ki, N.Paşinyan da bunun fərqindədir. Reallığı dəyişdirməyə, Ermənistanı Rusiyanın nəzarətindən çıxarıb, müəyyən qədər müstəqil dövlətə çevirməyə çalışır. Hərbi sahədə kadr islahatlarının olduğunu bununla əlaqələndirə bilərik. Amma nə qədər uğurlu olacağı, Rusiya tərəfinin bununla razılaşıb-razılaşmayacağı bilinmir”.

**Ekspert onu da diqqətə çatdırıb ki, yaxın günlərdə V.Putinin Ermənistana səfərinin gözlənildiyi bir vaxtda bu, nə dərəcədə realdır, bunu zaman göstərəcək:** ”Hər halda Ermənistan dünyada yaşanan dəyişikliklər, ciddi, geosiyasi qarşıdurmalar fonunda müstəqilliyini qısa zamanda qazana və reallaşdıra bilməz. Sadəcə cəhdlər edilir. Səylərin çox uğurlu olacağını da düşünmürəm. Fiqurlar dəyişəcək, amma rəsmi İrəvanın dövlət siyasəti, strukturu, maraqlarının dəyişməsini gözləmək bir az sadəlövhlük olardı. Hələ də düşmən ölkə Rusiyadan asılı vəziyyətdədir. Ermənistanı beynəlxalq hüquq formatında Kremldən başqa müdafiə edə biləcək başqa bir ölkə də yoxdur. Çünki Ermənistan həm Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) üzvüdür, həm də bir tək Rusiya ilə ikili müttəfiq və qarşılıqlı hərbi yardım müqaviləsinə sahibdir. Belə reallıqları gördüyümüz zaman Ermənistanın Rusiyadan ayrılmaq və ciddi struktur dəyişikliyinə getsə də, rəsmi Moskvadan qopmaq şansları çox azdır”.

*Qeyd edək ki, Ermənistanın hərbi prokuroru və müavinləri vəzifəsindən azad olunub.*

**Sücayət Mehti**



# Ərdoğanın İsrail səfəri münasibətlərdə yeni mərhələ olacaq

## Natiq Miri: “Münasibətlərin tənzimlənməsi İsrail-Fələstin münaqişəsinə də müsbət təsir göstərə bilər”

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-dakı yəhudi icmasının bir neçə yüksək vəzifəli üzvünə İsrailə səfər etmək niyyətində olduğunu bildirib. Türkiyə liderinin ehtimal olunan səfərinin tarixi barədə məlumat verilmir. İsrailin Baş naziri Yair Lapidinin də bu həftə BMT Baş Assambleyası çərçivəsində Ərdoğanla görüşü gözlənilir.**

Xatırladaq ki, sentyabrın 17-də Ərdoğan ən qısa zamanda İsrailə yeni səfir təyin edəcəyini açıqlayıb. Sentyabrın 19-da isə İsrail Türkiyə ilə münasibətlərin normallaşması fonunda Ankaraya yeni səfir təyin edib.

**Türkiyə-İsrail yaxınlaşmasının oturuşmuş fikir olduğunu deyən politoloq Natiq Miri ”Şərq”ə bildirib ki, iki ölkə arasındakı münasibətlərin tənzimlənməsinə ehtiyac duyulub.**

”Rəsmi Təl-Əviv Yaxın Şərq regionundakı güc mərkəzlərindın biridir. Yəhudi lobbisi isə dünyanın maliyyə qaynaqlarına rəhbərlik edən və yönəldən bir etnosdur. Bu baxımnan da İsrail kimi bir dövlətlə əlaqələrin bərpası rəsmi Ankara üçün vacibdir. Digər tərəfdən də 1947-ci ildən bu yana həll olunmamış İsrail-Fələstin problemi mövcuddur. Bu yöndə ciddi bir haqsızlıq var. Fələstin dövlətini dəstəkləyən qüvvələrdən birincisi qardaş Türkiyədir. Rəsmi Ankara təkcə öz maraqlarını yox, əzilən bütün xalqların və müsəlman dövlətlərinin haqlarını müdafiə etməklə tanınır. Qardaş ölkə ilə rəsmi Təl-Əviv arasında münasibətlərin tənzimlənməsi İsrail-Fələstin münaqişəsinə də müsbət təsir göstərə bilər. Çünki Rusiya-Ukrayna müharibəsində də həlledici geosiyasi amil məhz rəsmi Ankara oldu. Taxıl böhranının yaşandığı bir zamanda Rəcəb Tayib Ərdoğan məsələni Rusiya prezidenti ilə razılaşdıraraq qismən də olsa, yoluna qoydu. Faktlar göstərir ki, rəsmi Ankara bir çox oyunları pozan yox, həm də bu oyunları quran ölkəyə çevrilir”.

**Analitik qeyd edib ki, iki ölkə arasında da hərbi, siyasi və iqtisadi yöndə münasibətlərin irəliyə daşınma perspektivləri çox böyükdür:** ”İsrailin Aralıq dənizində tapdığı qaz mənbələrinin Türkiyə ərazisindən keçməsi ehtimalları var. Bu yöndə artıq şifahi danışıqlar aparılır. Bu da rəsmi Ankaranın regiondakı mövqeyini gücləndirir və onun Avroatlantik məkan üçün vazkeçilməz olduğunu ortaya qoyur. Türkiyə düşmən qazanmaqdansa, daha çox dost əldə etmək istəyir. Bu yolla öz problemləri ilə yanaşı, dost və qardaşlarının problemlərini də həll etməyi düşünür. Ərdoğanın İsrail səfəri baş tutarsa, bu, iki ölkə arasındakı münasibətlərin yeni məcraya daşınmasına gətirib çıxaracaq. Tərəfdaşlığın artıq əsası qoyulub. Rəsmi Təl-Əviv rəsmi Ankaraya öz səfirini göndərib. Yaxın zamanda Türkiyənin də İsrailə səfir təyin edəcəyi gözlənilir. Bununla da hər iki ölkə arasında sular durulacaq”.

**Nihat Müzəffər**



# Valideynlər illərdir bu dəyişikliyi gözləyir

**Hərbi xidmətdə bədbəxt hadisə nəticəsində həlak olanlara şəhid statusunun verilməsi təklif olunur. "Şəhid adlarının verilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanuna dəyişiklik olmalıdır. Milli Məclisin İnsan hüquqları komitəsinin bu gün keçirilən iclasında deputat Elşad Mirbəşir deyib.**

Deputat bildirib ki, bununla bağlı təkliflərini Milli Məclisə təqdim edib: "Vətən müharibəsi dövründə hərbi xidmət keçən zaman və yaxud hərbi vəzifəsini yerinə yetirən zaman hər hansı bədbəxt hadisə nəticəsində həyatını itirənlərə də şəhid adı verilsin. Bu mənim təklifimdir və çox həssas məsələdir. Vətən müharibəsi dövründə bəzi əsgərlərimiz avtomobil qəzası, silahla ehtiyatsız davranma, yanğın zamanı və bu kimi bədbəxt hadisələr nəticəsində həyatlarını itiriblər. Onlara şəhid adının verilməsi mövcud qanunvericiliyin müddəalarına əsasən mümkün olmur: "Hesab edirəm ki, sözügedən qanuna belə bir dəyişikliyin edilməsi Vətən müharibəsi dövründə hər hansı bir bədbəxt hadisə nəticəsində həyatını itirmiş əsgərlərimizin doğmaları və yaxınları üçün böyük təsəlli olardı".

Qeyd edək ki, Türkiyə qanunlarına görə isə hərbi xidmətə çağırıldığı ilk gündən düşmən gülləsindən və ya ehtiyatsızlıqdan, hətta arı sancmasından, xəstəlikdən və ya hansısa bədbəxt hadisə nəticəsində vəfat edən əsgər şəhid statusu alır.

Hərbi ekspert Üzeyir Cəfərov "Şərq"ə açıqlamasında millət vəkilinin təklifini dəstəkləyib və bu problemin bir çox valideyni ciddi narahat etdiyini deyib: "Ölkə başçısı İlham Əliyevin Hərbi məsələr üzrə köməkçisi, general-polkovnik Məhərrəm Əliyevin qəbulunda olan valideynlər illərdir bu dəyişikliyi gözləyir. Valideynlər haqlı olaraq Vətənin müdafiəsi üçün hərbi

***Hərbi xidmət zamanı başına bədbəxt hadisə gələnlərə də şəhid statusu verilməlidir***

xidmətə yola saldığı övladının xidmət vaxtı başına hər hansı bir bədbəxt hadisə gəlibsə, ona şəhid adının verilməsini tələb edir. Amma burada hərbi qulluqçuların xidmət etdiyi ərazi mütləq nəzərə alınmalıdır. Bakıda, Sumqayıtda asfaltın üstündə hərbi xidmətdə olan əsgərlə sərhəd rayonlarında və Qarabağda düşmənlə üzbəüz hərbi hissələrdə xidmət vəzifəsini icra edərkən bədbəxt hadisə nəticəsində həyatını itirmiş əsgərlərimiz arasında fərq olmalıdır. Sərhəddən kənarda, paytaxtda və ya digər mərkəzi şəhərlərdə hərbi qulluq edən hərbçilərimiz isə döyüş tapşırığı ilə bağlı təlimlərdə, poliqonda başına gələn hər hansı bir qəzada dünyasını dəyişərsə, bu zaman onlara da şəhid statusunun verilməsi mütləqdir. Şəhidlik çox müqəddəs və uca mərtəbədir. Ucdantutma, hər hansı səbəbdən həyatını itirən bütün hərbiçilərə bu statusun verilməsi torpaq və vətənin müdafiəsi uğrunda canından keçən şəhidlərimizin ruhuna qarşı hörmətsizlik olar".

**Ekspertin sözlərinə görə, Kəlbəcərdə hər an ölüm təhlükəsi altında hərbi xidmət keçən zabit və ya əsgərlə Sumqayıtdakı "N" saylı hərbi hissədə xidmət edən hərbi qulluqçular arasında fərqli yanaşmaq mütləqdir.** Hansısa bir əsgər hərbi hissədən özbaşına çıxıb harasa gedirsə, lap komandirin tapşırığı əsasında belə hərbi hissəni tərk edən zaman yolda avtoqəza keçirib ölürsə, onu şəhid adlandırmaq olmaz: "Amma ön xətdəki istənilən bir postda xidmət edən əsgər öz əsgər yoldaşının açdığı atəş nəticəsində həlak olsa belə ona mütləq şəhid statusu verilməlidir. Valideynlər haqlı olaraq sual edir ki, Nardaranda, Gəncədə xidməti vəzifəsini icra edərkən həyatını itirən polis əməkdaşı şəhid adı alır, amma düşmənlə üzbəüz postlarda Vətənin ərazi bütövlüyü uğrunda mübarizə aparan əsgər, gizir və ya zabit döyüşdən kənar xidməti vəzifəsini icra edərkən vəfat edərsə, o, şəhid sayılmır?! Ümid edirəm ki, deputatın təklifi digər parlamentarilər tərəfindən də dəstəklənəcək və yaxın zamanlarda dəyişikliklər qəbul ediləcək. 200-dən artıq valideyn məhkəmələrdə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunların qapılarında qalıb, hərbi vəzifəsini icra edən zaman dünyasını dəyişən övladlarına şəhid statusunun verilməsini tələb edirlər.

Mövcud qanunvericiliyə əsasən, Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hadisələrdə, o cümlədən atəşkəs dövründə döyüş şəraitində olan hərbi hissələrdə və ya daxili işlər, milli təhlükəsizlik orqanlarında döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi üzrə xidməti vəzifəsinin icrası zamanı həlak olmuş, itkin düşmüş və məhkəmənin qərarına əsasən ölmüş hesab edilən şəxslər şəhid hesab edilirlər".

**Şəymən Bayramova**

# "Pelosi nəticə və kötükcələrinin tərbiyəsi ilə məşğul olmalıdır"

## Elman Nəsirov: "Amma o, erməni lobbisi və diasporunu şad etmək, ABŞ-ın 3-cü vəzifəli şəxsi olmaq niyyətindən əl çəkmir"



**"ABŞ Konqresində Nümayəndələr Palatasının sədri Nensi Pelosinin sentyabrın 17-dən 19-na qədər Ermənistanda baş tutan səfəri əslində regionda kifayət qədər kövrək sülh prosesi və təhlükəsizlik mühitinə sarsıdıcı zərbə endirmiş oldu".**

**Bu sözləri "Şərq"ə açıqlamasında millət vəkili Elman Nəsirov deyib. Deputat qeyd edib ki, N.Pelosi rəsmi İrəvana səfəri zamanı iki məqsəd güdürdü:** "Əsas məsələ öz vəzifəsini, postunu konqresdə qoruyub, saxlamaqdır. Çünki noyabr ayında keçiriləcək seçkilərdə o, yenidən erməni lobbi və diasporunun maliyyə dəstəyi ilə parlamentə düşmək istəyir. Həmçinin N.Pelosinin mənsub olduğu Demokratlar Partiyasının çox ciddi əleyhdarları var. Onun vəzifədə qalmağının ABŞ-ın qlobal maraqları üçün çox ciddi təhdid yaradacağını hesab edirlər.

Bu baxımdan N.Pelosinin Tayvana səfərini xüsusi vurğulayırlar. Çünki onun həmin səfəri, az qala, ABŞ və Çin arasında müharibəyə gətirib çıxaracaqdı. Ermənistana gedişinin digər məqsədi isə anti-Rusiya meyillərinin gücləndirilməsi və Ermənistanda ABŞ-ın mövqelərinin möhkəmlənməsi ilə bağlı məsələni özündə ehtiva edir.

Birinci məramdan qaynaqlanaraq, N.Pelosi erməni lobbisi və diasporunu məmnun etmək və onların dəstəyini almaq üçün İrəvanda utanmadan, çəkinmədən Azərbaycan əleyhinə yalanla dolu informasiyalar səsləndirib. Anti-Azərbaycan mövqeyini ortaya qoyub. Son hadisələrdə - Ermənistanın Azərbaycana qarşı törətdiyi irimiqyaslı təxribatlarında ölkəmizi ittiham edib.

Bizi günahkar adlandırıb. Rəsmi Bakının rəsmi İrəvan ərazisinə təcavüz etdiyini diqqətə çatdırıb. Ətrafındakı konqresmenlərlə gəlişinə isə Ermənistan ailəsinin bir üzvü kimi səfər etdiyini dilə gətirib. Hətta bir qədər də irəli gedib, Ermənistanın dörd - Azərbaycan, Türkiyə, Gürcüstan və İran tərəfdən sıxılmaqda olduğunu vurğulayıb.

Onun bu məlum açıqlaması yaşlanması, yaddaşını itirməsi, yaxud psixoloji problemlərinin mövcudluğundan irəli gəlib-gəlmədiyini deyə bilmərik. Amma hər halda N.Pelosi tutduğu vəzifəyə görə İranın Ermənistanın yanında yer aldığından xəbərdar olmalı idi. Eyni zamanda İranın siyasi rəhbəriyi belə bir bəyanat səsləndirib ki, Ermənistan-Azərbaycan sərhədində dəyişiklik baş verməsi rəsmi Tehran üçün qırmızı xətdir. Belə olan halda kim kimi sıxır?!

**Parlamentari diqqətə çatdırıb ki, N.Pelosi bilərəkdən, yalan təxtibatla məşğuldur:** "Həmçinin səfərdən qayıtdıqdan sonra ABŞ konqresində ermənipərəst deputatlar ölkəmizə qarşı sanksiyaların tətbiqindən bəhs edirlər. Bununla bağlı xüsusi qanun qəbul etmək istəyirlər. Hesab edirəm ki, belə bir qərar imzalansa, bu, ABŞ Konqresinin ən böyük strateji səhvlərindən biri olacaq. Azərbaycanın yerləşdiyi coğrafiyanı unutmasınlar. Həmçinin ölkəmizin qonşu dövlətləri ilə ABŞ-ın münasibətlərini araşdırsınlar. Ondan sonra dövlətimizə dayandıqları mövqenin yanlışlığını anlasınlar. Belə bir addımın atılması ABŞ-ın region siyasətinə çox ciddi zərbə olar. Eyni zamanda təbii ki, Azərbaycanı da adekvat reaksiyalara məcbur edə bilər. Hesab edirəm ki, rəsmi Vaşinqton bütün bu məsələləri dərindən analiz etməlidir.

N.Pelosi və onun tərəfdarları kimi ermənipərəst konqresmen və senatorların ABŞ-ın strateji və qlobal maraqlarına deyil, daim erməni mövqeyinə qarşı öz etiraz səslərini ucaltmalıdırlar.

Bundan başqa, ABŞ-ın dövlət katibi Entoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə telefon zəngi edir və neytral mövqedə dayandığını bildirir. Regionda sülhdən, tərəfdaşlıqdan, təhlükəsizlik mühitinin formalaşmasından bəhs edir. Eyni zamanda heç kimi son sərhəd münaqişəsində günahlandırmır. Tərəfləri sülhə dəvət edir. Amma N.Pelosi və onun kimilər isə açıq şəkildə ermənipərəst mövqedə dayanırlar. Əslində N.Pelosi ahıl yaşında nəticə və kötükcələrinin tərbiyəsi ilə məşğul olmalıdır, amma o, erməni lobbisi və diasporunu şad etmək, ABŞ-ın 3-cü vəzifəli şəxsi olmaq niyyətindən əl çəkmir".

*Qeyd edək ki, ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosi 2 gün əvvəl Ermənistana səfər edib. Onun rəsmi İrəvana səfəri səlibçi təfəkkürü ilə müqayisə edilir.*

**Sücayət Mehti**

# Putin səfərbərlik elan etdi

## Rusiya bu dəfə Ukraynanın qarşısına 300 min hərbçi ilə çıxacaq

**Rusiya Prezidenti Vladimir Putin Rusiyada qismən səfərbərlik haqqında fərman imzalayıb. Çağırışçılar mütləq hərbi təlim keçməlidirlər. Putinin vətəndaşlara müraciətində qeyd etdiyinə görə, qismən səfərbərlik tədbiri Rusiyanı, onun suverenliyini, ərazi bütövlüyünü qorumaq və Rusiya xalqının təhlükəsizliyini təmin etmək üçün qəbul edilib. Dövlət başçısı Qərbin açıq anti-Rusiya siyasətini, Vaşinqton və Brüsselin ölkəni məhv etmək istəyini xatırladıb. Kreml rəhbəri Rusiyanın özünü qorumaq üçün bütün mümkün vasitələrdən istifadə etdiyinə diqqət çəkib. Bir müddət öncə Dövlət Duması Rusiya ordusunda hərbi xidmət üçün müqavilə bağlamış əcnəbilərin vətəndaşlıq almasını asanlaşdıran düzəlişlər qəbul edib.**

### "Bu halda nüvə silahından istifadə edəcəyik"

Putin xalqa müraciətində deyib ki, Rusiyanın ərazi bütövlüyünə təhdid olacağı təqdirdə nüvə silahından istifadə ediləcək. Rusiya liderinin sözlərinə görə, Qərb anti-Rusiya siyasətində bütün sərhədləri keçib: "Artıq Rusiyanın sərhədyanı ərazilərinə Qərb silahlarından zərbələr endirilir. NATO Rusiyanın cənubunda kəşfiyyat aparır".

### "Luqansk, Donetsk, Xerson və Zaporojyedə referendumun keçirilməsinə hər cür dəstək verəcəyik"

Putin bildirib ki, Rusiya "Luqansk Xalq Respublikası", "Donetsk Xalq Respublikası"nda, Xerson və Zaporojye vilayətlərində referendumun keçirilməsinə hər cür dəstək verəcək: "Referendumun təhlükəsiz şəraitdə keçirilməsi, insanların bölgənin gələcəyi ilə bağlı iradələrini sərbəst ifadə edə bilmələri üçün hər şey edəcəyik". Rusiya lideri əlavə edib ki, bölgə əhalisinin çoxluğunun referendumda qəbul edəcəyi qərarı dəstəkləyəcəklər. Qeyd edək ki, "Luqansk Xalq Respublikası", "Donetsk Xalq Respublikası", Xerson və Zaporojye vilayətlərində Rusiyaya birləşməyə dair sentyabrın 23-27-dək referendum keçiriləcək.

### "Qərb istəyir ki, Rusiya parçalansın"

Kreml rəhbəri deyib ki, Qərb Rusiyanın bir çox müharibə edən bölgələrə parçalanmasını istəyir: "Ukraynada qabaqlayıcı hərbi əməliyyatla bağlı qərar tamamilə zəruri və yeganə mümkün qərar idi. Ukraynada sülh yolu ilə həll Qərbin işinə yaramır, ona görə də Kiyevə danışıqları pozmaq tapşırılıb".

Rusiyanın Müdafiə naziri, ordu generalı Sergey Şoyqu bildirib ki, Ukrayna Silahlı Qüvvələrinin itkiləri 100 mindən çoxdur. Onun sözlərinə görə, Ukrayna və Qərb bu qədər insanın ölümünə səbəb olub: "Rusiya Ukraynadakı xüsusi hərbi əməliyyatda 5937 hərbçisini itirib".

### "Qismən səfərbərlik: bu qədər insan çağırılacaq"

Rusiya Müdafiə naziri Sergey Şoyqu deyib ki, qismən səfərbərlik çərçivəsində 300 min ehtiyatda olan hərbçi çağırılacaq: "Rusiyanın böyük səfərbərlik resursu var, demək olar ki, 25 milyon nəfərdir. Qismən səfərbərliyə düşənlərin sayı bu rəqəmin 1 faizdən bir qədər çoxunu təşkil edir".

### "Bitdi, yeni taktikaya keçdik, gözlərinizi yumun!"

Çeçenistan rəhbəri Ramzan Kadırov deyib ki, ukraynalı "nasistlərə" qarşı xüsusi əməliyyatın yeni taktikasına keçilir: "Biz daha onlarla məşğul olmaq fikrində deyilik". Kadırovun sözlərinə görə, düşmən yaxın gələcəkdə yeni cavab planının genişmiqyaslı nəticələri ilə üzləşəcək və əvvəlki hərəkətlər "uşaq oyuncağı" kimi görünəcək: "Yalnız bu mesajı özləri üçün xoşagəlməz bir əlamət kimi qəbul edən və qurtuluş üçün balanslı nəticələr çıxaranların bəxti gətirəcəkdir. Hazır olun və gözlərinizi yumun".

### "NATO-nun hərbi potensialı ilə üz-üzəyik"

Kreml qismən səfərbərliyin elan olunmasının səbəbini açıqlayıb. Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, qismən səfərbərlik elan etmək qərarı Ukraynada Rusiyanın bütün NATO-nun və bir sıra digər qeyri-dost ölkələrin hərbi potensialı ilə üz-üzə qalması ilə əlaqədar qəbul edilib: "Prezident Putin çıxışında xüsusi hərbi əməliyyat zamanı şərtlərin necə dəyişdiyindən danışıb. Məhz prezident deyib ki, əslində biz hazırda NATO-nun və bizə dost olmayan bir sıra digər ölkələrin hərbi potensialı ilə üz-üzəyik".



Peskov deyib ki, qismən səfərbərlik çərçivəsində 300 minədək insanın hərbi xidmətə çağırılması bir anda baş verməyəcək. Onun sözlərinə görə, Rusiya Federasiyası Hökuməti ən qısa müddətdə qismən səfərbərlikdən möhlət hüququ olan vətəndaşların kateqoriyalarını müəyyən edəcək: "Kremlin Rusiya Federasiyasında qismən səfərbərlik haqqında fərmanın dərc olunmamış yeddinci bəndini açıqlaya bilməz, o, rəsmi istifadə üçündür. Qismən səfərbərlik haqqında fərmanın qapalı yeddinci bəndi Şoyqunun artıq dediyi kimi, 300 min nəfərədək çağırışçının sayına aiddir". Peskov səfərbərliyə məruz qalan vətəndaşlara görə sərhədlərin mümkün bağlanması ilə bağlı suala cavab verməyib.

Ukraynanın məhv edilməsini tələb edən Rusiya, nəhayət, səfərbərlik elan etdi. Bu barədə Ukrayna Prezident Ofisinin rəhbərinin müşaviri Mixaylo Podolyak tvittərdə yazıb. Onun sözlərinə görə, artıq üç günlük müharibənin 210-cu günüdür: "Sərhədlər bağlanıb, bank hesabları dondurulub. Bu gün baş verənlər həyatın ironiyasıdır. Doğrudan da, hər şey plana uyğun gedir?!".

### "Hamı küçələrə çıxsın, etirazını bildirsin..."

Rusiyada ölkə Prezidenti Vladimir Putinin elan etdiyi səfərbərlik qərarı əleyhinə etiraz aksiyası planlaşdırılır. "Vesna" hərəkatının məlumatında deyilib ki, fəallar rusiyalıları ölkənin bütün şəhərlərində aksiya keçirməyə çağırıblar: "Vladimir Putin Rusiyada qismən səfərbərlik elan etdi. Bu o deməkdir ki, minlərlə rus kişisi - atalarımız, qardaşlarımız və ərlərimiz müharibəyə atılacaq. Onlar nə üçün öləcəklər? Analar və uşaqlar nə üçün göz yaşı tökəcəklər. Putinin sarayı üçün?".

Macarıstanın Xarici işlər naziri Peter Siyarto deyib ki, Avropa izahetmə yarışmasını çoxdan uduzub və dünyada bir çox ölkələr qoca qitənin Ukrayna böhranı, Rusiyaya sanksiyalarla bağlı mövqeyini bölüşmür: "Dünyanın qalan hissəsi mənfi nəticələrin mənbəyi ilə maraqlanmır, buna sadəcə son qoyulmasını istəyir. Avropa və Şimali Amerika rabitə və "siyasi şar" yaradır, bütün dünyanın sanki Ukrayna böhranını düşündüyü təəssüratını formalaşdırmağa çalışır. Əslində belə deyil. Ümid edirəm ki, Avropa ölkələri nəhayət savaşın sonlandırılması ilə bağlı real addımlar atacaq".

### "NATO-dan Rusiya açıqlaması: Başa salmağa çalışırıq ki..."

NATO Hərbi Komitəsinin rəhbəri admiral Rob Bauer deyib ki, hərbi blok Ukraynaya yardım göstərsə də, Rusiya ilə müharibə aparmır: "Mən bunu çox açıq şəkildə bildirmişəm. Əgər Rusiya bizim üzv dövlətlərdən birinə hücum etsəydi, bu, çox aydın olardı. Rusiyaya mümkün qədər başa salmağa çalışırıq ki, biz müttəfiqimizin ərazisinin hər nöqtəsini müdafiə edərik. NATO öz hərəkətləri ilə Ukraynanı və ona hücum edən ölkəyə qarşı özünü müdafiə etmək hüququnu dəstəkləyir. Bu, BMT Nizamnaməsində də yazılıb. Ona görə də NATO üzvlərinin və 20-dən çox ölkənin Ukraynanı dəstəkləməsi qanunidir".

Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba söyləyib ki, Ukrayna münaqişə bitənə qədər Qərbdən silah istəməkdən əl çəkməyəcək: "Bəzən insanlar məndən kifayət qədər silahımız olub-olmadığını soruşurlar. Yalnız Ukrayna qalib gələndən sonra kifayət qədər silahımız olacaq. Bu baş verənə qədər biz daha çox silah tələb edəcəyik".

### "Ərdoğandan Ukrayna ilə bağlı dünyaya çağırış..."

Türkiyə Ukraynadakı münaqişənin diplomatiya yolu ilə həlli üçün bütün ölkələri onun sülh təşəbbüslərini dəstəkləməyə çağırıb. Prezident Rəcəb Tayyib Ərdoğan BMT-də çıxışı zamanı deyib ki, Türkiyə Rusiya-Ukrayna müharibəsinin yaratdığı sarsıntılarla mübarizə aparır: "Biz mövcud böhranın həllində dialoq və diplomatiyanın əsas rolunu vurğulayırıq. Vasitəçi rolumuz sayəsində Rusiya və Ukraynanı Antalyada bir araya gətirdik. Biz Ukrayna taxılının dünya bazarına çıxarılmasını təmin etdik. İstanbul Konsensusu danışıqların nəticə verdiyini göstərdi".

### Ruslar müharibədən bezib, savaş istəmirlər..

**Politoloq Samir Hümbətov deyib ki, qismən səfərbərlik və itkilərlə bağlı açıqlanan rəqəmlər arasında uyğunsuzluq var. Rusiya müharibə başlayan zaman elan etmişdi ki, Ukrayna cəbhəsində 200 minə qədər döyüşçüsü var. İndi belə bir halın baş verməsi şübhələri artırır:** "Müharibə əleyhdarları olan "Vesna" Gənclər Hərəkatı qismən səfərbərliyə qarşı ümumRusiya mitinqi elan ediblər. Aksiya iştirakçıları mitinqləri "Məzarlaşmağa yox" şüarı adı altında keçirəcəklər. Yaydıqları bəyanatda deyilib ki, "Minlərlə Rusiya kişisi - atalarımız, qardaşlarımız və ərlərimiz müharibənin ətçəkən maşınlarına atılacaq. Nə üçün öləcəklər? Analar və uşaqlar niyə göz yaşı tökəcək? Müharibə artıq "orada" deyil - ölkəmizə, evlərimizə gəlib, qohumlarımız üçün gəlib. Beləliklə, onlar Rusiyanı dəhşətli qırğınlara, təcridə və yoxsulluğa sürükləyən Putin rejiminin səhvlərini düzəltmək üçün ölməlidirlər". Səfərbərliklə bağlı qərar imzalanandan sonra, Moskvadan Tbilisi, İstanbul və İrəvana olan biletlər tamamilə satılıb. Bu isə ondan xəbər verir ki, Rusiyadakı sadə vətəndaşlar müharibənin ağrısını həm döyüş meydanında, həm iqtisadi sanksiyalar altında, həm də dünyadan təcrid edilməklə hiss edirlər. Hesab edirəm, hadisələr belə davam edərsə Rusiya Ukraynada məğlub olmaqla yanaşı həm də ölkə daxilində ciddi problemlər yaşaya bilər. Bu da son nəticədə ölkənin bir neçə hissəyə bölünməsinə səbəb olar".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**



# "Siyasi partiyalar haqqında" yeni qanun

## Yeni qanun layihəsi təkcə müasir reallıqlar baxımından deyil, həm də vətəndaşların siyasi fəallığının artırılması baxmından mühüm yenilikdir

**"Siyasi partiyalar haqqında" yeni qanun layihəsi Milli Məclisdə əvvəlcə ictimai müzakirəyə, daha sonra komitələrin və plenar iclasların müzakirəsinə çıxarılacaq. Qanun layihəsi Milli Məclisin rəsmi internet saytında dərc edilib. Və qanunun ictimai əhəmiyyəti nəzərə alınaraq Azərbaycanda dövlət qeydiyyatına alınmış siyasi partiyaların yeni qanun layihəsi ilə bağlı təkliflərini Azərbaycan Respublikası Milli Məclisinə təqdim etmələri xahiş olunub. Siyasi partiyaların, ictimai təşkilatların, siyasi fəaliyyəti olmayan vətəndaşların da yeni qanun layihəsinə marağı böyükdür.**

Burada vətəndaşların siyasi yönümü, partiyalı olub-olmaması önəm daşımır. Önəmli olan vətəndaşların seçki prosesində və vacib siyasi proseslərdə aktiv iştirakıdır. Siyasi şərhçilər hesab edir ki, yeni qanun layihəsi bu baxımdan vətəndaşlara daha geniş imkanlar açacaq, onların siyasi fəallığını yüksəldəcək.

Yeni qanun layihəsinə nəzər saldıqda, müasir reallıqların nəzərə alındığı görünür. Sənədə əsasən, dövlət qeydiyyatından keçən partiyaların azad fəaliyyəti təmin edilir. Qarşısına konstitusiya quruluşunun zorla dəyişdirilməsi və hakimiyyətin ələ keçirilməsi məqsədi qoyan, ölkənin ərazi bütövlüyünü pozan, kütləvi iğtişaşlara, terrorçuluğa, dini ekstremizmə çağırış edən, irqi, dini, cinsi, etnik ayrı-seçkilik və ədavəti, sağlamlığa və ətraf mühitə qarşı yönəlmiş hərəkətləri təbliğ edən siyasi partiyaların yaradılmasına yol verilmir. Dövlət qeydiyyatından keçməyən siyasi partiyaların fəaliyyət göstərməsinə icazə verilmir. Siyasi partiya son 20 il ərzində daimi olaraq Azərbaycanda yaşayan ən az 200 vətəndaş tərəfindən təsis edilə bilər. Təsis qurultayında bu vətəndaşlar şəxsən iştirak etməlidirlər. Partiyanın dövlət qeydiyyatına alınması üçün ən az 10 min üzvü olmalıdır. Partiya üzvlərinin siyahısı dövlət reyestrinə daxil edilməsi üçün təqdim edilməlidir. Reyestrə dəyişikliklər ildə iki dəfə - yanvarın 15-nə qədər və iyulun 15-nə qədər təqdim edilməlidir. Partiyalar parlament, prezident və bələdiyyə seçkilərində ardıcıl olaraq iki dəfə iştirak etmədiyi təqdirdə dövlət qeydiyyatından məhrum edilə bilər. Üzvlərin siyasi partiyaya il ərzində ödədiyi üzvlük haqlarının yuxarı həddi 10000 manatdan artıq ola bilməz. Üzvlük haqqının məbləğindən artıq ödənişlər ianə hesab edilir. Partiyalar dövlət büdcəsindən də maliyyələşdiriləcək. Bu zaman vəsaitin 5 faizi irəli sürdüyü namizədlər Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilərdə etibarlı səslərin azı 3 faizini qazanmış, lakin Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunmayan siyasi partiyalar arasında qazanılmış səslərin sayına proporsional bölünür. Qanun qəbul edildikdən sonra 90 gün ərzində partiyalar öz say tərkibini yeni normalara uyğunlaşdırmalı, yəni üzv sayını 10 min nəfərə çatdırmalıdır. Qeyd edilir ki, Azərbaycanda hazırda qüvvədə olan "Siyasi partiyalar haqqında" qanun 1992-ci ildə qəbul edilib. Bu qanuna əsasən, partiyanın qeydiyyatı üçün 1 min üzv kifayət edirdi. Eyni zamanda, hazırkı qanun dövlət qeydiyyatından keçməyən partiyaların fəaliyyətini qadağan etmirdi. Qeyd edək ki, bəzi siyasi partiyaları əvvəlki qanuna məhz bu yöndə edilmiş dəyişiklik narahat edir.

**Milli Məclisin deputatı, hakim Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Cavid Osmanov isə hesab edir ki, "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi təkcə müasir reallıqlar baxımından deyil, həm də vətəndaşların siyasi fəallığının artırılması baxmından mühüm yenilikdir:**

- Son illər ərzində ölkəmizdə həyata keçirilən hərtərfli islahatlar, eyni zamanda siyasi islahatların tərkib hissəsi olaraq formalaşan yeni siyasi konfiqurasiya, həmçinin Vətən müharibəsində qazandığımız möhtəşəm zəfərin yaratdığı yeni reallıqlar ölkəmizin yeni inkişaf mərhələsinə keçidini təmin edib. Bu isə öz növbəsində ölkədə hər bir sahədə qanunvericilik bazasının müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi zərurətini yaradıb. Ölkəmizin demokratiya yolunda inkişafını və formalaşan yeni siyasi konfiqurasiyanı daha da sürətləndirmək məqsədilə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin qəbul edilməsi də günümüzün əsas tələblərindəndir. Nəzərə alsaq ki, "Siyasi partiyalar haqqında" mövcud qanun 1992-ci il 3 iyun tarixində, 30 il bundan bundan əvvəl qəbul edilib və artıq müasir dövrün tələblərinə bir o qədər də adekvat deyil. Bu baxımdan Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması üçün Milli Məclisin sədrinə müraciət ediblər. Artıq bu istiqamətdə fəal işlər görülüb və Milli Məclisdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması başa çatıb. Yeni qanun layihəsinin hazırlanması prosesi tamamilə demokratik və şəffaf formada təşkil edilib. Cari il iyulun 26-da Milli Məclis tərəfindən "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması prosesinə başlandığı barədə mediada məlumat verildi. Hətta ilk dəfə olaraq qanun layihəsi Milli Məclisin plenar iclasına, həmçinin komitələrin iclaslarına çıxarılmazdan əvvəl Milli Məclisin saytında yerləşdirildi. Bununla da prosesin ictimai əlçatanlığı tam təmin edildi. Sentyabrın 28-nə isə qanun layihəsi ilə bağlı ilk ictimai dinləmənin keçirilməsi gözlənilir. Təbii ki, "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların xüsusi maraq dairəsindədir. Odur ki, dövlət qeydiyyatına alınmış siyasi partiyaların yeni qanun layihəsi ilə bağlı təkliflərini Milli Məclisə təqdim etmələriylə əlaqədar müraciət edilib. Ötən müddət ərzində 39 siyasi partiya öz təkliflərini rəsmi olaraq Milli Məclisə təqdim edib ki, bu da özlüyündə layihənin hazırlanmasında siyasi partiyaların iştirakının təmin edilməsinin bariz göstəricisidir. "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması zamanı siyasi partiyaların təklifləri ilə yanaşı beynəlxalq təcrübə də öyrənilib, Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi üzrə 2010-cu və 2020-ci illərdə qəbul etdiyi tövsiyələr, həmçinin 20-dən artıq ölkənin təcrübəsi nəzərdən keçirilib. Hazırda Milli Məclisin saytında yerləşdirilmiş layihə ilkin variantdır və bu, ictimaiyyətin, siyasi partiya və müxtəlif qurumların layihə ilə tanış ola bilmələri üçün yaradılmış imkandır. Sentyabrın 28-i keçiriləcək ilkin ictimai dinləmə, həmçinin növbəti ictimai dinləmə zamanı siyasi partiyaların, digər vətəndaş cəmiyyəti subyektlərinin, ekspertlərin, dövlət orqan və qurumlarının təklifləri nəzərdən keçirilməklə qanun layihəsi üzərində təkmilləşdirmə işləri aparılacaq. Siyasi partiyaların təkliflərinin, beynəlxalq təcrübənin, eləcə də keçiriləcək ictimai dinləmələrin kompleks halda nəzərə alınması nəticəsində müasir dövrümüzün tələblərinə cavab verəcək "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi hazırlanacaq ki, bu da siyasi sistemimizin daha da təkmilləşdirilməsi işində əhəmiyyətli irəliləyiş olacaq.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# İrandakı etirazlar real vəziyyətdən doğur

## Sədrəddin Soltan: "İran məlum hadisələri daha çox İsrail, ABŞ və başqa ölkələrin ayağına yazmaq istəyir"

**"Rusiyanın Ukraynada başlatdığı müharibə İranın ağır olan iqtisadi, siyasi, sosial, mədəni və s. sahələrdəki vəziyyətini daha da gərginləşdirir".**

**Bu sözləri "Şərq"ə açıqlamasında politoloq Sədrəddin Soltan bildirib.**

Onun sözlərinə görə, İranın ali dini lideri Ayətullah Seyyid Əli Xameneinin Ukrayna ilə savaşda Rusiyanı dəstəkləməsi, ABŞ-ı ittiham etməsi durumu daha da çətinləşdirib: "Başqa sözlə, rəsmi Tehran bu münaqişədə öz rolunu və yolunu müəyyənləşdirib. Tərəf kimi çıxış etdiyi məlumdur. İranın rəsmi Moskvaya hərbi, texniki dəstəyi bunu bir daha təsdiqləyir. Bütün bunların fonunda cənub qonşumuza təzyiqləri təkcə ABŞ və İsrail göstərmir. Eyni zamanda onların müttəfiqləri də İran hakimiyyətinə qarşı basqıları davam etdirməkdədir. Son günlər xüsusən, iranlı gənc qadın Məhsa Əmininin zorakılıq nəticəsində öldürülməsi ölkədə sosial vəziyyəti pisləşdirib. Rəsmi Tehranın bir çox şəhərlərində hökumətə qarşı etiraz aksiyaları keçirilib. Bu nümayişlərdə əsasən, "diktatora ölüm", "təslim olmayacağıq", hətta "İranı geri alacağıq" kimi şüarlar da səslənməkdədir. Son zamanlar cənub qonşumuzda əxlaq polisi deyilən qurum fəaliyyətini gücləndirib. Bu təşkilat İran hakimiyyətindəki mövcud rejimin tətbiq etdiyi geyim-keçim, saç düzümü, hicab qaydalarına nəzarət edir. Axır bir neçə ildə bu polisin iş mexanizmi zəifləmişdi. Hətta gənc qızlar geyim məsələlərində bir az sərbəst davranırdılar. Amma hökumətdə müəyyən narahatlıqlar yarandı. Hesab etdi ki, insanların, xüsusən də qadınların bu şəkildə sərbəstləşməsi perspektivdə hökumət adamları üçün baş ağrısına səbəb ola bilər. Çünki İran hakimiyyəti başqa ölkələrdə hicabla bağlı cəmiyyətlərə, dövlətlərə təzyiq göstərir. Hicab geyinməyənlərlə mübarizə bir növ rəsmi Tehran hökumətinin əsas fəaliyyətindən birinə çevrilib. Daha sonra bu məsələlər yayılmağa başladı. Başqasının gözündə çöp axtaran İran öz gözündəki tiri gördü. Cənub qonşuluğumuzda sosial vəziyyətin ağırlaşması təkcə hicabla bağlı deyil. Həmçinin ölkədə insanlar günü-gündən sərtləşən bahalaşmaya tab gətirə bilmirlər. Fəhlə, müəllim, başqa peşə sahibləri və hətta dövlət orqanlarında çalışan işçilərin əmək haqları aylarla gecikdirilir. Bir sıra dövlət məmurları öz maaşlarını süni şəkildə artırır. Hakimiyyətdə təmsil olunanların övladları xaricdə yaşayır. Digər ölkələrdə sərbəst formada geyinib-keçinirlər. Bu da İranda mitinqlərə gətirib çıxarır".

**"İnsanların gündəlik tələbatları ödənilmədiyinə görə, əhali etiraz aksiyası keçirir"**



Hazırda İranın iqtisadi durumunun ağır olduğunu deyən ekspert qeyd edib ki, bu vəziyyət onun Ukrayna-Rusiya müharibəsində tutduğu mövqedən irəli gəlib: "İran neft və təbii qazın başqa ölkələrə ixracında məhdudiyyətlərlə üzləşib. Ölkə iqtisadi vəziyyəti isə əsasən, neft və qaz hasilatından qazanılan gəlirdən asılıdır. Urmiya gölü quruyur. Lakin qarşısını almaq üçün heç layihə yoxdur. Layihə varsa da, onun həyata keçirilməsi üçün pul kifayət etmir. Vəsait ayrılsa da reallaşdırılmır. Bütün bunlar İranda çox ağır, çətin sosial-iqtisadi vəziyyətin yaranması ilə nəticələnir. Etiraz nümayişləri hələ davam edəcək. Bu, ABŞ və İsrailin Tehran hakimiyyətinə etdiyi təzyiqindən irəli gəlmir. İran məlum hadisələri daha çox İsrail, ABŞ və başqa ölkələrin ayağına yazmaq istəyir. Amma indiki etirazlar real vəziyyətdən doğur. İnsanların gündəlik tələbatları ödənilmədiyinə görə, əhali etiraz aksiyası keçirir. Son aylarda İran hakimiyyətinə qarşı təşkil edilən nümayişlərdə səslənən bir neçə şüarı diqqətə çatdıra bilərik - "Ya yaşamaq, ya ölüm", "Xalqı aldadan dövlət, haqqımızı geri ver", "Dövlətin büdcəsi yoxdur, bizə basqı göstərir", "Qanun pozan hökumət, istefa, istefa!", "Döyüşəcəyik, öləcəyik, İranı geri alacağıq", "Bizə işgəncə verməyin" və s. şüarların hamısı İranda etirazların yönünü və mahiyyətini açıqlayır. Hesab edirəm ki, İran hökuməti tutduğu mövqedən geri çəkilməzsə, beynəlxalq ictimaiyyətlə razılaşmazsa, hakimiyyətin vəziyyəti daha da ağırlaşacaq".

*Qeyd edək ki, sentyabrın 20-də Tehran, Məşhəd, Sari, Təbriz və digər şəhərlərdə keçirilən etiraz aksiyalarında hökumət əleyhinə şüarlar səsləndirilib. Etirazçılar zibil qutularını aşırıb, yandırıb, bəzi şəhər lövhələrinə ziyan vurublar.*

*Məşhəd şəhərində keçirilən aksiyada etirazçılar təcili tibbi yardım avtomobilinə hücum edərək onu yandırıblar.*

*Həmçinin mitinqi dağıtmaq üçün gələn polis nəfəri etirazçılar tərəfindən yandırılıb. Xatırladaq ki, son günlər artan etiraz nümayişləri əxlaq polisinin 22 yaşlı iranlı Məhsa Əminini öldürməsi səbəbilə şiddətlənib.*

**Sücayət Mehti**

# Yazılan hər xəbər düşmənin əlinə keçə bilər

## Ordu ilə bağlı düşünülmüş informasiya yaymaq təkcə peşə kodeksinin tələbi deyil, həm də bir vicdan məsələsidir



**Azərbaycan Silahlı Qüvvələri tərəfindən ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı törədilən erməni təxribatlarının qarşısının qətiyyətlə alındığı həssas bir dönəmdə müxtəlif sosial şəbəkələrdə Azərbaycan Ordusu və hərbçilərinin nüfuzdan salınması istiqamətində təxribat xarakterli müxtəlif məlumatların paylaşılması müşahidə edilməkdədir.**

Baş Prokurorluğun yaydığı məlumatda bildirilib ki, bu qəbildən olan informasiyaların təhlili zamanı Azərbaycan Ordusu ilə bağlı dəqiqləşdirilməmiş informasiyaların yayılmasının qanunsuz xarakteri diqqətə çatdırılaraq, əsassız informasiya yayan şəxslər barəsində qanun pozuntusuna yol verməkdən çəkindirmək haqqında xəbərdarlıq elan edilib.

**Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycan 30 il müddətində Ermənistanla münaqişə vəziyyətində olub, haqsız müharibəyə, torpaq və insan itkilərinə məruz qalıb:** "Bu müddət ərzində KİV işçiləri münaqişə bölgəsi, cəbhə xətti, ordu bölmələri, hərbi əməliyyatlar və sair mövzularda necə yazmaq lazım olduğu barədə yetərincə bilgi alıblar. Bu mövzuda qanunlar, sərəncamlar, təlimatlar var, çoxsaylı təlimlər, kurslar keçirilib, müzakirələr aparlıb. "Dövlət sirri haqqında" qanun, "Media haqqında" qanun, Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları və digər mənbələr həssaslıq tələb edən mövzularda xəbərlərin hansı standartlar üzrə hazırlanmalı olduğu barədə lazımi istiqamət verir. Bütün bunlardan sonra hansısa KİV işçisi, sosial şəbəkə istifadəçisi, xəbər istehsalçısı mövzu üzrə material hazırlayarkən yanlışa yol verirsə, mövzuya aid materialları xəbər standartları, qanunlar çərçivəsində deyil, öz düşüncəsinə, dünyagörüşünə uyğun hazırlayıb yayırsa, deməli, burada sadə xətadan söhbət getmir. Ortada konkret maraqlar və onlara xidmət edən qüvvələr var. Bu baxımdan ordumuzla bağlı dəqiqləşdirilməmiş informasiya yayan şəxslərlə bağlı Baş Prokurorluğun xəbərdarlığı yerində bir addımdır. Əgər hansısa sosial şəbəkə istifadəçisi mövzu üzrə axtarış aparırsa, müəyyən baryerləri keçirsə, məhdudiyyət qoyulan informasiyanı əldə edə bilirsə, deməli, onun xəbər standartları barədə bilgisi, vərdişləri var".

**M.Ələsgərlinin fikrincə, belələrinin yol verdiyi xəta da təsadüfi xarakter daşımır:** "Bu baxımdan hüquq-mühafizə orqanlarının bu yöndə diqqətli davranmasının əsası var. Azərbaycan dövləti humanist dövlətdir. Adətən sərt tədbirlər görülməzdən öncə məlumatlandırma, maarifləndirmə işləri aparılır, xəbərdarlıqlar edilir. Hiss olunur ki, yanlış xəbərin istehsalçısı olan şəxslərə də bu kontekstdən yanaşılır. Dəfələrlə xəbərdarlıq edilir ki, yanlışa yol verməsinlər. Amma zərurət anında hüquqi ölçü də götürülür.

Hər bir azərbaycanlı başa düşməlidir ki, ordu ilə bağlı yaydığı cüzi bir xəbər hansısa bir şəxsin, ailəsinin faciəsi ilə nəticələnə bilər. Yəni bu gün yazılan xəbər düşmənin əlinə keçir və düşmən həmin informasiyadan istifadə edib ordumuza qarşı təxribat törədir. Nəticədə isə ordumuz itki verir. Deməli, ordu ilə bağlı əsassız xəbər yazmaq təkcə qanunvericiliyin və ya peşə kodeksinin tələbi deyil. Həm də bir vicdan məsələsidir".

**Şəymən Bayramova**

# Vətəndaşlar ailə həkimlərini yaşadıqları ərazi üzrə seçəcəklər

## Bu institutun yaranması cəmiyyətin sağlam inkişafına böyük təsir göstərəcək

**Millət vəkili, Milli Məclisin səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Ailə həkimi" haqqında qanun layihəsinin hazırlanmasını təklif edir. Millət vəkili hesab edir ki, Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə TƏBİB birgə çalışaraq qanun layihəsini hazırlamalıdır. Komitə sədri ailə həkimi nədir, bunun əhaliyə nə xeyri olacaq, hansı üstünlükləri var, bu haqda danışmayıb.**



Amma son illər səhiyyə sahəsində aparılan islahatlar, icbari tibbi sığortanın tətbiqi ailə həkimi institutunun da formalaşmasına şərait yaradıb. Məsələn, hazırda dövlət xəstəxanasında müalicə almaq istəyən vətəndaşa ərazi üzrə poliklinika şöbəsi uyğun göndəriş verməlidir. Bu göndərişi isə ərazi müalicə həkimi tərtib edir, vətəndaşın mövcud sağlamlıq vəziyyəti əsasında. Anlaşılan, ailə həkimi, bildiyimiz sahə həkimi - "uçastkovı" həkimdir. Sahə həkimləri öhdələrinə verilmiş ünvanlar üzrə vətəndaşları, əksər hallarda tanıyır, çünki hər kəs öz sahə həkimini tanıyır və adətən məhz ona müraciət edirlər. Şəxsin səhiyyə kitabçası da sahə həkiminin əlinin altında olduğundan pasiyentin keçirdiyi xəstəliklər, aldığı müalicələr barədə məlumatlı olur. Məsələ bu qədər aydın olduğu halda "Ailə həkimi" haqqında qanunun qəbuluna ehtiyac varmı?

**Bu barədə "Şərq"ə danışan həkim-terapevt Elvira Mirzəyeva qeyd etdi ki, "Ailə həkimi haqqında" qanunun qəbulu ailə həkimi institutunun yaranmasına xidmət edəcək:**

- Ailə həkimi ali tibbi təhsil almış, əhaliyə (cinsindən, yaşından və xəstəlik növündən asılı olmayaraq) ilkin profilli tibbi-sosial yardım göstərməyə hüquqi səlahiyyəti olan mütəxəssislərə deyilir. Başqa sözlə, ailələr bütün xəstəliklərini ailə həkimlərinə etibar edə bilirlər. Ailə həkimi öz xəstəsini uzun illər nəzarətdə saxlayır və onun keçirdiyi bütün xəstəliklər barədə məlumatlı olur. Bir sözlə, ailə həkimi ailəyə xidmət edir və o, ailənin etibarlı həkimi olur. Ailə həkimi tibbin bütün sahələrindən xəbərdar olmalı, pasiyenti olan ailənin bütün üzvlərinin sağlamlıqla bağlı problemlərinin həllində iştirak etməlidir. Ailə həkimi müəyyən müddətdən sonra ailənin bir üzvünə çevrilir və həmin ailənin xəstəlik problemləri də nəzərəçarpacaq dərəcədə azalır. Çünki ailə həkimi ailədə olan vərdişlərdən, genetikada olan problemlərdən xəbərdar olduğundan vaxtında profilaktik tədbirlər görə bilir. Həmçinin həmin ailənin düzgün qidalanmasına yardımçı olur. Bu da öz növbəsində qidalanma ilə sıx şəkildə bağlı olan xəstəliklərin azalmasında özünü büruzə verir. Ailə həkimi ailə üzvləri ilə yaxın olduğundan bu ailədəki münasibətlərə də yaxşı bələd olur. Bu xüsusiyyət onun ailənin psixoloqu rolunda da çıxış etməsinə kömək edir. Ailə həkimindən yüksək ixtisaslı peşəkar mütəxəssis olmaqla yanaşı həm də pasiyentlərlə sadə dildə danışmağı bacarmaq, müayinə və müalicənin bütün etapları haqqında dolğun məlumat vermək, xəstəni "eşitmək" talantına sahib olmaq da tələb olunur.

**E.Mirzəyeva qeyd etdi ki, ailələr öz həkimlərini yaşadıqları ərazi üzrə seçəcəklər.**

- Ailə həkimi ambulator xidmət göstərəcək, lazım gəldikdə stasionar müalicə təyin edəcək, xəstəni müalicə müəssisəsinə yönləndirəcək. Əvvəllər bu işi sahə həkimləri yerinə yetirirdi. İndi isə ailə həkimləri olacaq. Hesab edilir ki, ailə həkimi institutunun formalaşması əhalinin sağlamlığının təminində və cəmiyyətin sağlam inkişafında böyük əhəmiyyət daşıyacaq.

*E.Mirzəyeva bildirdi ki, ailə həkimi təkcə terapevt deyil, nervopotoloq, pediatr, travmatoloq, onkoloq, oftalmoloq... qısası, tibbin əsasını təşkil edən sahələri bilməlidir. Qardaş Türkiyədə tibb ixtisası üzrə - ali baza təhsili sahəsində təhsil alanlar rezidentura pilləsində ailə həkimi kimi formalaşırlar. Hərtərəfli tibbi biliyə malik olurlar. Müsbət haldır ki, Azərbaycan Tibb Universitetində ailə həkiminin hazırlanması ilə bağlı fəaliyyətə başlanılıb artıq.*

**Məlahət Rzayeva**



# "Ölkəyə keyfiyyətsiz dərmanlar gətirilir"

## Natiq Cəfərli: "Azərbaycanda dərman istehsalı yoxdursa, yüksək gömrük rüsumu, vergi dərəcələri tətbiq etmək yanlışdır"



**"Azərbaycan bazarının 90-95 faizi xaricdən gələn dərmanlardan asılıdır. Hamı, o cümlədən deputatlar, məmurlar dərmanların qiymətinin yüksək, keyfiyyətinin isə aşağı olması barədə fikir bildirir. Amma səbəbləri başqadır".**

Bunu "Şərq"ə açıqlamasında dərmanların qiymət və keyfiyyətindən danışarkən iqtisadçı Natiq Cəfərli deyib.

Ekspertin qənaətincə, Tarif Şurasının əvəzinə ölkədə güclü rəqabət mühiti yaradılmalıdır, qiymətləri rəqabət təyin etməlidir: "Dərman preparatlarının qiymətini molekullar üzrə Tarif Şurası müəyyənləşdirir. Eyni molekulun istehsalçısı olan bir neçə ölkə var. Ən ucuz və keyfiyyətsiz molekuldan hazırlanmış dərmanların ölkəyə gətirilməsinə şərait yaranır. Səbəb isə Tarif Şurasının məsələyə müdaxiləsidir. Digər problem isə gömrük rüsumları ilə əlaqəlidir. Ölkədə dərman istehsalı yoxdursa, yüksək gömrük rüsumu, vergi dərəcələri tətbiq etmək yanlışdır. Bu gün ölkədə satılan dərmanların qiymətinin tərkibində ən azı 30 faizi vergilər və rüsumlardır. Nəticə etibarilə qiymətlər yüksək, keyfiyyət isə aşağıdır".

*Qeyd edək ki, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Azərbaycanda dərmanların keyfiyyətindən və qiymətindən narazılığını bildirib. Parlamentari komitənin iclasında deyib ki, dərmanların əlçatanlığı və keyfiyyəti ilə bağlı xeyli problemlər mövcuddur. Payız sessiyasında dərmanların qiymətləri, keyfiyyəti ilə bağlı dinləmə keçirilməsini təklif edib.*

**Aygün Tahir**



# Bəzi məktəb direktorlarına "dərs" vermək lazımdır

## Elçin Əfəndi: "Vətəndaşlardan xahiş olunur ki, məktəblərdə bu kimi hallarla qarşılaşdıqda dərhal nazirliyin "Qaynar xətt"inə məlumat versinlər"

**Müəllimlərdən pul tələb edən Sumqayıt şəhər 32 saylı orta məktəbin direktoru Esmira İbrahimova haqqında araşdırma aparılaraq akt tərtib olunub. O, tutduğu vəzifədən azad olunub. Xatırladaq ki, Sumqayıt şəhər 32 saylı orta məktəbin direktoru Esmira İbrahimovanın müəllimlərdən açıq-aşkar pul tələb etməsi ilə bağlı səs yazısı yayılmışdı.**

Direktor müəllimlər üçün yaratdığı "Watsapp" qrupuna səs ataraq hər müəllimdən 50 manat istəyib. O, bu pulu orta məktəbin təmiri bəhanəsi ilə tələb edib.

Bundan başqa, Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) Vətən müharibəsi qazisi, polkovnik Elşən Umarovun övladının təhsili ilə bağlı 227 saylı tam orta məktəbə müraciəti zamanı direktorun ona qarşı kobud rəftarı məsələsinə münasibət bildirib. BŞTİ-dən bildirilib ki, Elşən Umarovun övladının təhsilini davam etdirməsi üçün Bakı şəhəri 227 saylı tam orta məktəbə müraciəti zamanı məktəb direktoru Sevinc Hüseynova tərəfindən ona qarşı kobud rəftar edilməsi ilə bağlı idarə tərəfindən araşdırma aparılıb: "Araşdırmanın nəticələrinə əsasən, məktəbin direktoru Sevinc Hüseynovaya əmək fəaliyyəti zamanı yol verdiyi nöqsanlara, vətəndaş qəbulu qaydalarına uyğun vəzifə funksiyalarını düzgün yerinə yetirmədiyinə, "Müəllimlərin etik davranış qaydaları"nın tələblərini pozduğuna və müəllim nüfuzuna xələl gətirən hallara yol verdiyinə görə intizam tənbehi kimi töhmət verilib".

**Məsələyə münasibət bildirən təhsil eksperti Elçin Əfəndi "Şərq"ə bildirib ki, məktəb rəhbərlərinin müəllimlərdən, şagirdlərdən və valideynlərdən pul tələb etməsi qanunvericiliyin pozulmasıdır:** "Direktorun bu əməli birbaşa korrupsiya faktı kimi qiymətləndirilir. Əgər təhsil müəssisəsində hansısa təmir işləri görülməlidirsə, bununla bağlı məktəbin tabe olduğu regional idarəyə və yaxud Elm və Təhsil Nazirliyinə məlumat verilməlidir.

Doğrudur, təhsil haqqında qanunvericilikdə ianələrin toplanması ilə bağlı müvafiq müddəa yer alır. Lakin bu, könüllülük prinsiplərinə əsaslanmalıdır və müəllim heyəti məcbur edilməməlidir. Artıq işlərin həlli yolunda addımlar atılır və Təhsil İnkişaf Fondu yaradılır. İanələrin toplanması ilə məhz bu fond məşğul olacaq. Məktəblərin təmiri ilə bağlı dövlət büdcəsindən milyonlarla pul ayrılır. Özbaşına ödəniş edən məktəb rəhbərlərinin işdən azad edilməsi ən doğru qərardır. Bu, digər direktorlara da dərs ola bilər. Onlar bu halı gördükdə belə əməllərdən çəkinəcəklər. Korrupsiya faktına dəlalət edəcək addımlar atan hər bir şəxs qanunvericilik çərçivəsində vəzifədən uzaqlaşdırılmalıdır. Bunun nə dərəcədə effekt verəcəyini isə biz qarşıdakı zaman kəsiyində görəcəyik. Əgər hansısa direktor belə bir əməl törədərsə, onu da eyni aqibət gözləyir. Bunu dərk etsinlər. Vətəndaşlardan xahiş olunur ki, məktəblərdə bu kimi hallarla qarşılaşdıqda dərhal nazirliyin "Qaynar xətt"inə məlumat versinlər".

**Nihat Müzəffər**



# "Nəinki çalğıçılar, rəqqaslar, dərzilər də tibbi sığorta olunmalıdır"

## Fuad İbrahimov: "Bu qərarın nə dərəcədə real icra olunacağını bilmirəm"

**Normal cəmiyyətdə İcbari Tibbi Sığorta hər kəsə şamil olunur. Bu, şəxsin peşə, vəzifə və yaxud cəmiyyətdə tutduğu mövqeyinə görə müəyyənləşməməlidir. Hər bir vətəndaş İcbari Tibbi Sığortadan yararlanmalıdır".**

**Bunu "Şərq"ə açıqlamasında iqtisadçı-ekspert Fuad İbrahimov deyib.**

"Tibbi sığorta haqqında" qanuna dəyişiklik layihəsinə münasibət bildirən ekspert diqqətə çatdırıb ki, ölkəmizdə yalnız işləyənlərin rəsmi maaşlarından müəyyən məbləğ çıxır: "Onların fəaliyyəti daha çox könüllü vergi ödəyicisi kimi qeydiyyatdan keçməklə təyin edilir. Bu qərarın nə dərəcədə real icra olunacağını bilmirəm. Proses şəffaf şəkildə həyata keçirilsə, tibb sahəsində işləyənlər vətəndaşlarla vəhdətə gəlsələr, sivil münasibətlərin qurulmasına şərait yaranacaq".

*Qeyd edək ki, sentyabrın 20-də "Tibbi sığorta haqqında" qanuna dəyişiklik layihəsi parlamentin Səhiyyə komitəsinin iclasında müzakirə edilib. Layihəyə əsasən, Azərbaycanda toy aparıcıları, çalğıçılar, rəqqaslar, dərzilər və bərbərlər icbari tibbi sığorta ilə əhatə olunacaq. Sənədin qəbulu ilə bu kateqoriyadan olan fiziki şəxslər minimum əməkhaqqının 4 faizi miqdarında məbləğ ödəməklə icbari tibbi sığortanın xidmətlərindən bəhrələnə biləcəklər.*

**Aygün Tahir**

# Təhsil Nazirliyi 10 ildir rüşvətə qarşı mübarizə aparır

## Hələ də məktəblərdə ciddi bir nəticə yoxdur

**Müəllimlərdən pul tələb edən Sumqayıt şəhər 32 saylı orta məktəbin direktoru Esmira İbrahimova vəzifəsindən azad olunub. Araşdırma aparılaraq akt tərtib olunub və məktəbin direktoru tutduğu vəzifədən azad olunub.**



Xatırladaq ki, Sumqayıt şəhər 32 saylı orta məktəbin direktoru Esmira İbrahimovanın müəllimlərdən açıq-aşkar pul tələb etməsi ilə bağlı səs yazısı yayılmışdı. Məktəbin direktoru müəllimlər üçün yaratdığı "Watsapp" qrupuna səs ataraq hər müəllimdən 50 manat tələb edib. Direktor bu pulu orta məktəbin təmiri bəhanəsi ilə tələb edib.

Qeyd edək ki, E.İbrahimovanın sadəcə vəzifəsindən azad olunmaqla cəzalandırılması cəmiyyətdə birmənalı qarşılanmayıb. Bir çoxları hesab edir ki, müəllimlərdən, valideynlərdən pul yığan direktorlar daha sərt cəzalandırılmalı, işdən azad olunmaqla yanaşı inzibati cəza almalıdır.

**Təhsil eksperti Elşən Qafarov "Şərq"ə açıqlamasında deyib ki, bu tip hadisələr ictimailəşdikdən sonra Təhsil Nazirliyi hadisə ilə bağlı araşdırma aparır və fakt öz təsdiqini tapanda həmin şəxsin vəzifədən azad olunması barədə qərar verir:** "Amma məsələ burasındadır ki, 10 ildən artıqdır Təhsil Nazirliyi məktəblərdə rüşvətə qarşı mübarizə aparsa da, ortada bir nəticə yoxdur. Təsərrüfat xərclərinin müəllimlərdən, valideynlərdən toplanmasının əsas səbəbi məktəblərin öz büdcəsinin olmamasıdır. Mütləq şəkildə məktəblər publik hüquqi şəxsə çevrilməlidir. Hər məktəbin maddi-texniki bazası olmalıdır ki, direktorlar və müəllimlər hansısa bəhanələrlə pul tələb edə bilməsinlər".

*Ekspertin sözlərinə görə, Təhsil Nazirliyi sözügedən direktorun vəzifədən azad olunması ilə bağlı qərarını tələsik verib:* "Beynəlxalq təcrübəyə görə, həmin direktorun işdən müvəqqəti kənarlaşdırılması ilə bağlı qərar verilməlidir. Bizim qanunvericiliyimiz də bunu tələb edir. Ortada direktorun müəllimlərdən rüşvət yığması ilə bağlı səs yazısı var və artıq prokurorluq faktla bağlı istintaq aparır. Çox güman ki, istintaqın nəticəsinə uyğun olaraq direktor barəsində vəzifədən sui-istifadə və vəzifə səlahiyyətlərini aşma maddəsinə uyğun cinayət işi açılacaq. Şəxs haqqında qərar da məhz istintaqın nəticəsindən sonra verilməli idi. Artıq müəllimlərdən, valideynlərdən pul tələb edən direktorlar bilir ki, fakt ictimailəşmədiyi müddətdə onlara "qaşın üstdə gözün var" deyən olmayacaq.

Nazirlər Kabinetinin 19 yanvar 2010-cu il tarixli 10 nömrəli qərarı ilə təsdiq olunmuş "Təhsil müəssisələrinin Sahibkarlıq və İnnovasiya fəaliyyəti" qaydalarına uyğun olaraq məktəblərə qazanc əldə etmək imkanı yaradılmalı və əldə olunan vəsaitlər təsərrüfat xərcləri üçün istifadə edilməlidir. Əks halda pul yığan direktorların hələ çox səs yazısı yayılacaq. 32 saylı orta məktəbin direktorunun vəzifəsindən azad olunmasından digər məktəb direktorları "nəticə" çıxarıb daha ehtiyatlı olacaq. Amma bu o demək deyil ki, onlar təmir bəhanəsi ilə pul yığmayacaqlar. Yenə də yığacaqlar, sadəcə bu dəfə səs yazısı ilə yox, köməkçilərindən, müavinlərindən ismarıc göndərəcəklər".

**Şəymən Bayramova**

**Elan**

Abdullayev Oktay Seyidəli oğluna məxsus Azərbaycan Futbol Veteranlar İttifaqının Nizamnaməsi və Şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

SOCAR Təhlükəsizlik İdarəsi tərəfindən Əliyev Gündüz Oqtay oğlunun adına verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2693

